RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 178 (9057) BAZAR, 21 avqust 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Yeni tarix - yeni reallıqlar

## Bunu mükəmməl idarəçilik üslubu olan Prezident İlham Əliyev yazır, yaradır

Yaşadığımız dövr, zəmanə reallıqlar dünyasıdır. Beynəlxalq ictimaiyyət hansısa məsələ barədə rəy formalaşdırarkən həmin reallıqlara istinad edir. Həyatımızda baş verənlər, gerçəkliklər isə göz önündədir. Prezident İlham Əliyevin ötən onilliklərdə həyata keçirdiyi siyasət Azərbaycanı Cənubi Qafqazın əsas inkişaf mərkəzinə çevirib.

Hazırda ölkəmiz regionun müasir iqtisadi-siyasi mənzərəsini müəyyənləşdirən qlobal layihələrin həm təşəbbüskarı, həm də icraçısıdır. Bu layihələr bizə sülh, davamlı inkişaf, vətəndaşlara yüksək rifah gətirir. Onlardan böyük bir coğrafiyada yaşayan insanlar da faydalanırlar. Azərbaycanın tutduğu yol, təklif etdiyi gələcək hər kəsin maraqlarına xidmət edir, hər kəs üçün daha gözəl bir dünyanın qurulmasına zəmin yaradır.

Azərbaycan Prezidentinin mükəmməl idarəçilik üslubunda nəzərəçarpan ən önəmli məqamlardan biri də ölkə əhalisi, ümumilikdə isə bütün maraqlı tərəflərlə daim sıx ünsiyyət qurması, çıxışları, müsahibələri, bəyanatları ilə gündəmin əsas suallarına tam şəkildə aydınlıq gətirməsi, ictimai rəyi düzgün istiqamətləndirməsidir. Bu baxımdan dövlət başçısının İsmayıllı rayonunun Basqal qəsəbəsində Azərbaycan televiziyasına verdiyi müsahibə də böyük maraqla qarşılandı, ictimai rəyə ciddi təsir göstərdi. Müəyyən problemlərə aydınlıq gətirildi, münasibət bildirildi, mövqe açıqlandı.

### Ermənilər yeni reallıqları qəbul etməlidirlər

Prezident müsahibəsində Qarabağdakı qanunsuz erməni silahlı birləşmələrinin törətdikləri və bir hərbçimizin şəhid olması ilə nəticələnmiş təxribata cavab kimi ordumuzun uğurlu "Qisas" əməliyyatından sonra yaranmış vəziyyətə diqqət yönəltdi. Bir neçə saat ərzində davam edən və qısa müddətdə öz hədəflərinə çatan "Qisas" əməliyyatı təxribatçılara qarşı cəza tədbiri idi. Azərbaycan Prezidenti bu əməliyyatın mahiyyətini məhz belə izah etdi: "Azərbaycan şəhidinin qanı düşmənlərə baha başa gəldi və onlar bunu unutmamalıdır. Əgər yenə də buna oxşar təxribat törədilərsə, cavab da eyni olacaq və heç kim bizə mane ola bilməz, heç kim bizi durdura bilməz. Biz öz torpağımızda istənilən əməliyyatı istənilən zaman apara bilərik. Sadəcə olaraq, "Qisas" əməliyyatının çox təsirli, ancaq qısamüddətli olması onu göstərir ki, bizim gücümüz də yerindədir, eyni zamanda biz yeni müharibə istəmirik. Çünki İkinci Qarabağ müharibəsi gücümüzü göstərdi və biz istədiyimizə hərbi və ondan sonra hərbi-siyasi yollarla nail olduq..."Qisas" əməliyyatı Ermənistana bir daha göstərdi ki, bizi heç kim və heç nə dayandıra bilməz, nə kiminsə bəyanatı, nə kiminsə açıqlaması, nə hansısa telefon zəngi".

"Qisas" əməliyyatı ermənilərə yeni reallıqları qəbul etmələri, Azərbaycanın əsəblərini tarıma çəkib odla oynamağın onlar üçün hansı nəticələrlə başa gələcəyini anlamaları üçün həm də verilən bir ibrət dərsi idi. Bu əməliyyatla bir daha göstərildi ki, ermənilərin bütün təxribatları qarşısında bu bəd əməlləri anında dəf etmək gücündə olan qüdrətli Azərbaycan var. İkinci Qarabağ müharibəsi ölkəmizin gücünü ortaya qoydu, dövlətimizin nələrə qadir olduğunu dünyaya nümayiş etdirdi. Bu haqq savaşında düşmən məğlubiyyətə uğradı və biz öz ərazi bütövlüyümüzü bərpa etdik. Ermənistan bu vəziyyətdən nəticə çıxarıb nəhayət ki, düzgün yola gəlməyi bacarmalıdır. Ölkə rəhbəri müsahibəsində xüsusi vurğuladı ki, Azərbaycan düşmən mövqeyində duranlara odla oynamamaq, yeni reallıqları qəbul etmək, hərbi təxribatlardan əl çəkmək barədə dəfələrlə xəbərdarlıq edib. Əgər bu xəbərdarlıqlara məhəl qoymasalar, bunun ən böyük ziyanını yenə Ermənistan özü çəkəcək, onlar əl atdıqları istənilən təxribatın qat-qat artıq cavabını alacaqlar və alırlar.

→ 2

## İnsan amili dövlət siyasətində hər zaman prioritetdir

### İlham Əliyevin mütərəqqi islahatları vətəndaş rifahı və məmnunluğuna yönələn uğurlara yol açıb

Azərbaycanda əhalinin sosial müdafiəsinin etibarlı təmin edilməsi praktik işdə real təsdiqini tapır. Prezident İlham Əliyevin sosial sahəyə xüsusi diqqət və qayğısı, imzaladığı fərman və sərəncamlar sosial cəhətdən həssas əhali qruplarının etibarlı müdafiə sistemi ilə əhatə olunmasına şərait yaradıb.

İlham Əliyev bütün dövrlərdə əhalinin sosial müdafiəsinin təşkili və daxili siyasətin sosialyönümlüyünü ön planda saxlayıb. Ən önəmli məqam isə ondan ibarətdir ki, Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşının firavan yaşam tərzi dayanır. Xüsusən sosial məsələlərin həlli ilə bağlı ölkədə çoxsaylı dövlət proqramları, böyük layihələr həyata keçirilir.

→ 2

## Dünyada gedən proseslər çörək və un məmulatlarının qiymətinə təsirsiz qalmır

### Azərbaycanda əsassız qiymət dəyişikliyinin qarşısının alınması məqsədilə istehlak bazarında mütəmadi monitorinqlər aparılır

İndi hamıya məlumdur ki, dünyada baş verən iqtisadi proseslər, ərzaqlıq buğdanın əsas ixracatçıları - Rusiya və Ukrayna arasında hərbi münaqişənin yaratdığı problemlər, tədarük riskləri, ərzaqlıq buğda ixracında məhdudiyyətlər, dünya bazarında bu məhsula tələbin yüksəlməsi qiymət artımına səbəb olub.

Bu və digər amillərin Azərbaycanda da un və çörəyin qiymətinə təsir göstərməsi təbiidir. Hazırda daxili bazarda unun və nəticə etibarilə çörəyin qiymətində artım müşahidə olunur.

→ 4

## Ermənistanda işsizlik böhranı yaşanır

### Xarici ianə və yardımların kəsiləcəyi təqdirdə ölkənin daha böyük səfalətə sürüklənəcəyi şəksizdir

Ermənistanda sosial-iqtisadi durum getdikcə ağırlaşmaqda, ölkədə yaşanan tənəzzül durmadan genişlənməkdədir. Bu vəziyyətdə sadə vətəndaşların rifah halı daha da pisləşir ki, bu da ölkədə müşahidə olunan sosial narazılığın daha da artmasına rəvac verir.

İndi bu ölkədə insanlar gələcəklərinə də nikbin yanaşmır və əvvəlki kimi Ermənistanı tərk etməyə çalışırlar. Yerdə qalanların durumu isə olduqca acınacaqlıdır. Onlar böyük səfalət içində yaşayır, gündəlik ərzaq almağa pul tapmaqda belə çətinlik çəkirlər.

Məhz bunun nəticəsidir ki, Ermənistanda əhalinin böyük əksəriyyəti banklara borcludur.

→ 8

## Buna siyasətdə multikulturalizm, el arasında isə dostluq deyirlər...

### Yolumuz Qaxın əsasən gürcülər yaşayan Meşəbaş kəndinədir

Doğma Azərbaycanımızın hər guşəsini abad, gözəl, firavan görmək hamımızın arzusu, istəyidir. Bu gün fəxrlə deyə bilərik ki, ölkəmiz başdan-başa dəyişib. Təkcə şəhərlərin, qəsəbələrin deyil, ucqar kəndlərin belə siması yeniləşib. Həyata keçirilən infrastruktur layihələr insanların rifah halını yüksəldib.

Xüsusilə son 19 ildə reallaşdırılan regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları sayəsində şəhər və kəndlərimizin sosial həyatında köklü dəyişikliklər baş verib. Rayonumuzun əksər kəndləri bu proqramlarda nəzərdə tutulan sosial-iqtisadi inkişaf strategiyasından bəhrələnib. Belə kəndlərdən biri rayon mərkəzindən cəmi 3 kilometrlik məsafədə yerləşən, sakinlərinin əksəriyyəti gürcü olan Meşəbaşdır. Bu kənd əhalisinin sayına və ərazisinin sahəsinə görə ən kiçik kəndlərimizdəndir. Uzun illər bir çox problemlərin yaşandığı bu kənddə də həyat kökündən dəyişib.

→ 5



## Məsuliyyətsizlik və etinasızlığın nəticəsi

### Meşə yanğınlarının əsas səbəbi insan amilidir

→ 4

# Yeni tarix - yeni reallıqlar

## Bunu mükəmməl idarəçilik üslubu olan Prezident İlham Əliyev yazır, yaradır



*Əvvəli 1-ci səh.*

### Qanunsuz erməni silahlı birləşmələri Qarabağı birdəfəlik tərk etməlidirlər

Azərbaycan hər iki tərəfdən insan itkilərinə qarşıdır. Qanunsuz erməni silahlı birləşmələrinin əl atdıqları istənilən təxribat və ona verilən cavab insan itkisi riski, yeni faciələr, sülh prosesinin uzanması deməkdir. Erməni silahlılarının törətdikləri təxribatların cavabını anında vermək, təxribatçıları məhv etmək rəşadətli ordumuz üçün çox asan əməliyyat tapşırığıdır. Amma Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş gənclərimizin təkrarsız ömürlərini yenidən qaytarmaq, onların itkisi ilə bağlı acıları doğmalarına, ümumən xalqımıza unutdurmaq mümkün deyil. Bu cür təxribatlar, itkilər, xalqlar arasında kin-küdurəti gücləndirir, sülhə inamsızlıq yaradır. Bu təxribatlara cavab tədbirləri nəticəyə qarşı atılan addımlardır. Azərbaycanın niyyəti isə səbəbi kökündən aradan qaldırmaq, regionda sülhü, davamlı inkişafı təhdid edən amilləri ortadan götürməkdir.

Ona görə də regionda daimi sülhün əldə olunmasından ötrü erməni silahlı birləşmələri Qarabağı birdəfəlik tərk etməlidirlər. Ermənistan 10 noyabr 2020-ci ildə imzaladığı kapitulyasiya aktında bununla bağlı üzərinə götürdüyü öhdəliyə, nəhayət ki, əməl etməlidir. Bu, Ermənistanın öhdəliyidir və Azərbaycan qonşu dövlətin öz öhdəliyini yerinə yetirməsinə nail olacaq. Bununla bağlı dövlətimizin mövqeyi birmənalıdır. Prezident İlham Əliyev müsahibəsi zamanı bu qətiyyətli mövqeyi bir daha diqqətə çatdırdı. Dövlət rəhbərimiz xatırlatdı ki, Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planının müəyyən edilməsi müvafiq bəyanatda öz əksini tapıb. Azərbaycan Prezidenti bunun ölkəmizin istəyi ilə sənədə daxil edildiyini yada saldı və bunun səbəblərini bir daha izah etdi: "10 noyabr 2020-ci il Bəyannaməsində açıq-aydın göstərilir ki, yeni yol çəkiləcək və üç il ərzində bu yolun planlaşdırılması və razılaşdırılması təmin edilməlidir. Bu bəndi üçtərəfli Bəyanata saldıran məhz mənəm. Çünki 2020-ci il noyabrın 9-da son danışıqlar aparılarkən, - danışıqlar Rusiya Prezidenti Vladimir Putin vasitəsilə aparılırdı, Ermənistan rəhbərliyi, o cümlədən Rusiya özü də bu danışıqlarda fəal iştirak edirdi, - mən çox təkid edirdim ki, mütləq bu bənd salınmalıdır. Çünki Ermənistanı Xankəndi ilə birləşdirən yol Laçın şəhərinin içindən keçir. Əgər bu bənd olmasaydı, o zaman Laçın şəhəri beş kilometr enində olan zonaya düşəcəkdi və tez bir zamanda oraya keçmiş köçkünləri qaytarmaq mümkün olmayacaqdı".

Bütün bunlar Laçın dəhlizinə alternativ yolla bağlı məqamın 10 noyabr Bəyanatına salınmasının strateji əhəmiyyətini göstərir və bu məsələnin ayrıca bənd kimi üçtərəfli sənədin məzmununa daxil edilməsinə israrla nail olmuş Azərbaycan Prezidentinin diplomatik məharətini, uzaqgörənliyini bir daha nümayiş etdirir.

### Laçın şəhəri, Sus və Zabux kəndlərinin sakinləri yaxın zamanlarda öz doğma yerlərinə qayıdacaqlar

Tarixi zəfərimizdən sonra bütün Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı işlər aparan, azad edilmiş torpaqlarımızın dirçəlişi ilə bağlı məqsədyönlü, ardıcıl tədbirlər görən Azərbaycan dövləti bu işlər çərçivəsində qısa müddətdə həmin marşrut üzrə yolun çəkilməsini də təmin edib. 32 kilometr uzunluğunda yol cəmi bir il ərzində inşa olunub. Yeni yol ən müasir standartlara uyğun, yüksək keyfiyyətlə çəkilib. Nəinki Qarabağın, ümumilikdə Ermənistanın tarixində belə keyfiyyətli yol olmayıb. Bütün bunlar, təbii ki, son onilliklərdə Azərbaycanın bu cür infrastruktur layihələrinin icrası sahəsində əldə etdiyi zəngin təcrübə, malik olduğu peşəkar kadr potensialı, maddi-texniki imkanlar sayəsindədir.

İndi isə Laçın şəhərində, Zabux və Sus kəndlərində qanunsuz məskunlaşmış ermənilərin çıxarılması vaxtıdır. Azərbaycan torpaqlarının işğalı dövründə Ermənistanın bu ərazilərdə qanunsuz məskunlaşdırma aparması hərbi cinayətdir və Azərbaycan Prezidenti İlham Əliyev bunu bir daha müsahibəsində bəyan etdi. Bunun Cenevrə konvensiyalarının qaydalarına zidd olduğunu diqqətə çatdıraraq bildirdi ki, işğalçı ölkə işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma apara bilməz. Ona görə də bu hərbi cinayətin nəticələri aradan qaldırılacaq, Laçın şəhərinin, Sus, Zabux kəndlərinin uzun illərdən bəri məcburi köçkün vəziyyətində yaşayan camaatı yaxın zamanlarda öz doğma yerlərinə qayıdacaq.

### Azərbaycan öhdəliklərinə sadiqdir

Laçın dəhlizinə alternativ yolun qısa müddətdə çəkilməsi verdiyi sözü hər zaman tutan Azərbaycan dövlətinin 10 noyabr Bəyanatında üzərinə götürdüyü bütün öhdəliklərə də sadiq qaldığına, bu öhdəliklərdən irəli gələn bütün məsələləri yerinə yetirdiyinə, Ermənistanın isə vaxt uzatmaq, öhdəliklərindən yayınmaq üçün vəziyyətin bəlkə dəyişəcəyi ümidi ilə yenə fitnəkarlıqla məşğul olduğuna dəlalət edir. Ermənistanın Laçın dəhlizinə alternativ yolla bağlı təxribatları da bunun göstəricisidir.

Prezident İlham Əliyev bəyan etdi ki, vaxt uzatmaq onlara heç nə verməyəcək. Əgər onlar fikirləşirlərsə ki, bir ildən, ya ilyarımdan sonra xeyirlərinə nəsə dəyişəcək, səhv edirlər. Ermənistan Azərbaycanın səbrini sınağa çəkməyin hansı nəticələr verəcəyini anlamalıdır. Çünki Azərbaycanın səbri sonsuz deyil, bunu Vətən müharibəsinin nəticələri bir daha göstərdi. Ona görə də Laçın şəhərində, Zabux və Sus kəndlərində qanunsuz məskunlaşmış insanlar öz xoşları ilə oradan çıxıb getməlidirlər. Onların hara gedəcəkləri isə Azərbaycan üçün qətiyyən maraqlı deyil, bu, işğal dövründə hərbi cinayətlər törədərək ölkəmizin ərazisində qanunsuz məskunlaşdırma aparmış Ermənistanı qayğılandıracaq məsələdir.

### Danışıqlar masasında hər hansı statusdan söhbət gedə bilməz

Dövlət rəhbərimiz müsahibəsində bir məsələni də vurğuladı ki, bu gün Ermənistan hakimiyyəti Qarabağda yaşayan ermənilərə öz təsir imkanlarını itirir: "Bu, həqiqətdir. Əksinə, Azərbaycan hakimiyyəti öz təsir imkanlarını artırır. Bu, reallıqdır. Bunun səbəbi, məncə, ondan ibarətdir ki, Qarabağda yaşayan ermənilər açıq-aydın gördülər ki, Ermənistan hakimiyyəti onların problemlərini həll etmək iqtidarında deyil - nə təhlükəsizlik, nə iqtisadi, nə maliyyə, nə başqa. Heç bir problemi həll etmək iqtidarında deyil. Əksinə, gördü ki, Azərbaycan hakimiyyəti onlara öz vətəndaşları kimi yanaşır və mən bunu demişəm, birinci dəfə deyil. Qarabağda yaşayan ermənilər bizim vətəndaşlarımızdır. Nə qədər onlar bunu tez dərk etsələr və bu proses artıq başlayır, o qədər də hamımız üçün yaxşı olar".

Prezident İlham Əliyev bir daha bəyan etdi ki, tarixi zəfərimizdən sonra bu gün Ermənistanla Azərbaycan arasında gedən normallaşma prosesində Qarabağ mövzusu yoxdur. Danışıqlar masasında hər hansı statusdan, ümumiyyətlə, söhbət belə getmir. Qarabağda yaşayan ermənilərin hüquqları da, təhlükəsizliyi də Azərbaycan dövləti tərəfindən təmin ediləcək. Qarabağda yaşayan ermənilər düzgün addım atmalı, başa düşməlidirlər ki, onların gələcəyi ancaq Azərbaycan cəmiyyətinə inteqrasiyadan keçir. Qarabağ həm tarixi, həm beynəlxalq hüquq nöqteyi-nəzərindən Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Bu həqiqətin Qarabağda yaşayan ermənilər tərəfindən vaxtında dərki sülh və inkişafa, insanların rifahına xidmət edəcək. Multikultural dəyərlərə mühüm önəm verən və bütün dünyada bu dəyərləri təşviq edən, zəngin tolerantlıq ənənələrinə malik olan, tarixən də, bu gün də müxtəlif xalqların təmsilçilərinin mehriban şəraitdə yaşadıqları Azərbaycan dövləti bütün vətəndaşları kimi Qarabağ ermənilərinin də hüquqlarını qoruyacaq. Onların təhlükəsizliyinə təminat verəcək. Azərbaycanın bütün vətəndaşlarının, ölkəmizdə yaşayan müxtəlif xalqların nümayəndələrinin hüquqları necə təmin edilirsə, Qarabağda yaşayan ermənilərə münasibət də bu şəkildə olacaq. "Qarabağda yaşayan ermənilərin nə statusu olacaq, nə müstəqilliyi olacaq, nə də ki, hansısa xüsusi imtiyazı olacaq", - deyə Azərbaycan Prezidenti bir daha bəyan etdi. "Əgər Qarabağda kimsə yenə də, bilmirəm, hansısa populizm naminə, yaxud da ki, indi, necə deyərlər, kimdənsə qorxduğu üçün hansısa statusdan, müstəqillikdən söhbət aparırsa, bilmək lazımdır ki, o, erməni xalqının birinci düşmənidir".

Qarabağ və burada yaşayan erməni əsilli vətəndaşlar məsələsi artıq Azərbaycan dövlətinin öz daxili məsələsinə çevrilir və dövlətimiz torpaqlarımızı 44 gün içində işğaldan azad etdiyi kimi, bu məsələni də qanunvericilik normaları çərçivəsində tədricən yoluna qoyacaq.

### Tarixi zəfərin dəyəri

Azərbaycanın tarixi zəfəri ilə Cənubi Qafqazda yaratdığı reallıqların, regionun gələcəyi üçün açdığı inkişaf üfüqlərinin dəyərini obyektivlik hissinə malik hər kəs görür. Ölkəmizin irəli sürdüyü qlobal təşəbbüslər, ortaya qoyduğu perspektivlər bütün region ölkələri üçün imkanlar mühiti yaradır. Bu imkanlardan faydalanaraq, xoş niyyətlər ətrafında bir araya gələrək yaşadığımız coğrafiyanı əsl inkişaf cənnətinə, sülh, qarşılıqlı əməkdaşlıq və fayda, insanlar üçün xoşbəxtlik məkanına çevirmək mümkündür və Azərbaycan bu ali niyyət uğrunda çalışır, belə işıqlı hədəfə doğru irəliləyir. Hazırda dövlətimizin heç bir kənar dəstək olmadan öz imkanları hesabına Qarabağda, Şərqi Zəngəzurda həyata keçirdiyi quruculuq layihələri, çəkilən yollar, tikilən binalar, yaradılan sosial infrastruktur, Zəngəzur dəhlizi kimi qlobal əhəmiyyətli kommunikasiya xəttinin açılması üçün görülən işlər təkcə azad torpaqlarımızın yox, ümumilikdə regionun gələcəyinə Azərbaycanın böyük töhfələridir.

Əgər Ermənistan da bu gələcəkdə özünü görmək niyyətindədirsə, xəstə düşüncələrdən, mənasız iddialardan əl çəkib, bütün tərəflər üçün faydalı təşəbbüslərin icrasına dəstək verməlidir, o cümlədən bölgə üçün böyük əhəmiyyət daşıyan Zəngəzur dəhlizinin marşrutunu yaxın həftələrdə təqdim etməlidir. Unutmamalıdır ki, ölkəmizə qarşı ərazi iddialarından əl çəkmədiyi təqdirdə Azərbaycanın da Ermənistana qarşı ərazi iddiaları qaldırmaq üçün kifayət qədər tarixi-hüquqi əsasları var. İndiki Ermənistan dövləti Azərbaycanın ərazilərində qərar tutur, Qərbi Zəngəzur, İrəvan əcdadlarımızın əsrlərlə yaşayıb zəngin mədəniyyət yaratdıqları tarixi torpaqlarımızdır. Ermənilər uzun illər boyu nə qədər silib izini itirməyə çalışsalar da, yenə bu torpaqların hər qarışında Azərbaycan xalqının mədəni, tarixi irsi boy göstərir.

Vətən müharibəsi tarixi dəyişdi, həyatımızda yeni başlanğıcların əsasını qoydu, eyni zamanda düşüncələrdə də böyük dəyişikliklərə yol açdı. Bu gün tarix səhnəsində ötən əsrlərin ən böyük zəfərini qazanmış, dövlətimizin, ordumuzun, milli vəhdətimizin verdiyi ruhla sarsılmaz gücə sahib olan Azərbaycan xalqı, qətiyyətli Liderin mətin iradəsi, bugünə və gələcəyə aydın baxışı, müdrikliyi sayəsində tarixinin ən qüdrətli mərhələsinə yetişmiş Azərbaycan dövləti var. Bütün bunlar xalqımızın layiq olduğu qalibiyyət, qüdrətlilik duyğusunu gücləndirir, bizi milli hədəflərimizə doğru yaxınlaşdırır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# İnsan amili dövlət siyasətində hər zaman prioritetdir

## İlham Əliyevin mütərəqqi islahatları vətəndaş rifahı və məmnunluğuna yönələn uğurlara yol açıb

*Əvvəli 1-ci səh.*

Çox önəmli faktdır ki, hər il Prezidentin imzaladığı fərman və sərəncamların 65 faizi məhz sosialyönümlü olur.

### Sosial rifah dövlətinin qurulması

Azərbaycanda sosial rifah dövlətinin qurulması istiqamətində çox ciddi addımlar atılmaqdadır. Son illər Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə açılmış ümumtəhsil müəssisələrinin, xəstəxanaların və digər sosial əhəmiyyətli obyektlərin sayı bir daha Azərbaycanın sosial dövlət kimi mahiyyətini ortaya qoyur.

Dünyada çox az ölkə tapılar ki, sosial siyasətin təzahür formalarının müxtəlifliyinə görə Azərbaycanla müqayisə oluna bilsin. Sosial-iqtisadi sahədə ardıcıl şəkildə islahatlar aparan dövlətlər sırasında daim adı çəkilən Azərbaycanın iqtisadi uğurları sosial sahədə inqilabi islahatların gerçəkləşməsinə real zəmin yaradıb.

Bir tərəfdən düşünülmüş və ardıcıl həyata keçirilən islahatların nəticəsi, digər tərəfdən isə İlham Əliyevin cəsarətli, inamlı addımları əhalinin, xüsusən də şəhid ailələrinin, müharibə əlillərinin sosial müdafəsinin gücləndirilməsini təmin edib. Bütün bunlar ümumilikdə ölkə vətəndaşlarının xoş gələcəyinə hesablanmış qətiyyətli siyasətin təzahürüdür desək, yanılmarıq.

Azərbaycan dövlətinin bugünkü sosial siyasəti əhalinin və onun müxtəlif qruplarının həyat səviyyəsinin durmadan yüksəldilməsinə xidmət edir. Bu siyasətin əsas məqsədi isə insan kapitalını formalaşdırmaq və inkişaf etdirməkdir. Çünki insan kapitalının səviyyəsi yüksək olan ölkələrdə sosial-iqtisadi islahatlar daha uğurla həyata keçirilir, siyasi şüur və mədəniyyət yüksəlir, vətəndaş cəmiyyəti formalaşır və insanlar sosialyönümlü dövlətin möhkəmləndirilməsi və inkişafı proseslərində yaxından iştirak edirlər. Ona görə də insan kapitalının formalaşdırılması üçün insanın sağlamlığı ilkin faktor kimi önə çıxır.

Bütün dövrlərdə qəbul edilmiş dövlət büdcəsinə nəzər saldıqda sosialyönümlü xərclərə əsasən deyə bilərik ki, dövlətin iqtisadi konstitusiyası da hər zaman sosialyönümlü olub.

### Vətəndaşlar üçün ədalətli və əhatəli sosial müdafiə sistemi

Prezidentin təsdiq etdiyi yeni sosial-iqtisadi strategiya isə onu deməyə əsas verir ki, qarşıdakı illərdə bu siyasət daha da güclənəcək.

Strategiyanın dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət üzrə çərçivəsində qeyd edilir ki, ölkədə əməkhaqları artırılacaq və hamı üçün layiqli həyat səviyyəsi təmin ediləcək. İşləyənlərin layiqli həyat səviyyəsinin təmin edilməsi məqsədilə minimum əməkhaqları artırılacaq. Xalis minimum əməkhaqqının xalis orta aylıq əməkhaqqına nisbətinin məqbul səviyyəsi qorunacaq.

Özəl sektorda yeni iş yerləri yaradılacaq, məşğulluq səviyyəsi artacaq. Yeni iş yerləri yaradan sahibkarlıq fəaliyyəti stimullaşdırılacaq. Xüsusilə regionlarda kiçik və orta sahibkarlığın, eləcə də özünüməşğulluğun inkişafına zəruri şərait yaradılmaqla əhali qrupları üçün səmərəli məşğulluğa və layiqli əməyə nail olunacaq, qeyri-formal məşğulluğa qarşı zəruri qabaqlayıcı və nəzarət tədbirləri gücləndiriləcək, bunun nəticəsində qeyri-dövlət sektorunda məşğul əhalinin payı 2021-ci ildəki 77,6 faizdən artaraq 80 faizə çatdırılacaq.

Sənəddə vurğulanır ki, bütün vətəndaşlar üçün ədalətli və əhatəli sosial müdafiə sistemi qurulacaq. Pensiyaçılar üçün effektiv yığım, aztəminatlı əhali qrupu üçün zəruri ehtiyacların ödənilməsi, əlilliyi olan şəxslər üçün isə sosial yardımların əlçatanlığı artırılacaq. Pensiya sisteminin dayanıqlığı gücləndiriləcək, sosial sığortanın tətbiqi genişləndiriləcək. Hamı üçün bərabər iştirak imkanı yaradan sosial təminat və sosial xidmətlər sistemi inkişaf etdiriləcək. Minimum pensiya məbləği minimum əməkhaqqı səviyyəsinin 75-80 faizində saxlanılacaq.

Şəhərlə kənd arasında yaşayış standartlarındakı fərqlər azaldılacaq. Regionların iqtisadi və təbii potensialından səmərəli istifadə ediləcək, özəl investisiyaların cəlbi təşviq olunacaq, yeni çağırışlara uyğun regional inkişaf mexanizmləri dövlət tərəfindən dəstəklənəcək. Nəticədə ümumi məhsul buraxılışında regionların xüsusi çəkisi 35 faizdən 42 faizə çatdırılacaq.

Strategiyanın rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı üzrə çərçivəsində isə elmi sahənin inkişafına xüsusi diqqətin ayrılacağı vurğulanır. Qeyd edilir ki, ilk növbədə məktəbəqədər təhsilin əhatə dairəsi artırılacaqdır. Ölkə üzrə məktəbəqədər təhsilin göstəriciləri yaxşılaşdırılacaq, məktəbəqədər təhsilin məzmunu yenilənəcək, pedaqoji heyətin və idarəetmə heyətinin peşəkarlığı artırılacaq, məktəbəqədər təhsilin keyfiyyətinin təminatı sistemi yaradılacaq. Nəticədə məktəbəqədər təhsilə cəlb edilmiş 1-5 yaşlıların payı 50 faizə çatdırılacaq.

Ölkədə ümumi təhsildə səriştəəsaslı məzmun tətbiq olunacaq, təhsil üzrə beynəlxalq qiymətləndirmələrdə mövqe yaxşılaşdırılacaq. Təhsilverənlərin və idarəetmə heyətinin peşəkarlıq səviyyəsi artırılacaq. Ümumi təhsildə nəticəyönlü idarəetmə və maliyyələşmə sistemi qurulacaq, təmayüllərin və inklüziv təhsilin əhatə dairəsi genişləndiriləcək, infrastruktur isə müasirləşdiriləcək.

Peşə təhsilinin əhatə dairəsi və keyfiyyəti artırılacaq. Əmək bazarının tələblərinə cavab verən peşə təhsili tətbiq olunacaq, işəgötürənlər peşə təhsili sisteminə inteqrasiya ediləcəklər. Peşə təhsili sistemində maliyyələşmə və idarəetmə sistemi təkmilləşdiriləcək, təhsilverənlərin və idarəetmə heyətinin peşəkarlıq səviyyəsi artırılacaq. Nəticədə peşə təhsili müəssisələrinə qəbul olan tələbələrin sayı əlavə olaraq 11 min nəfər çoxalacaq.

Gəlirindən asılı olmayaraq bütün ailələrin övladları üçün ali təhsilə əlçatanlıq təmin olunacaq. Ali təhsilin məzmununda əmək bazarının tələbləri nəzərə alınacaq, ali təhsilin keyfiyyəti artırılacaq və beynəlxalq rəqabətliliyi təmin olunacaq, rəqabətli maliyyələşmə və idarəetmə mexanizmləri yaradılacaq. Nəticədə ali təhsil alan tələbələrin sayı əlavə olaraq 20 min nəfər artacaq.

Elmin müxtəlif sahələri üzrə tədqiqatlar genişləndiriləcək. Müasir təfəkkürlü və kreativ düşüncəli gənclər erkən vaxtlardan elmi araşdırmalara cəlb ediləcək. Elmi tədqiqatların rəqabətli və məqsədli maliyyələşdirilməsi mexanizmi yaradılacaq. Beynəlxalq impakt-faktorlu jurnallarda çap olunan məqalələrin sayı 40 faiz artacaq.

Əhalinin davamlı savadlanması üçün "ömür boyu öyrənmək" mexanizmi yaradılacaq. Bu mexanizm əhalinin əmək bazarının tələblərinə uyğun ixtisasartırma kurslarında iştirak etməsinə və zəruri kvalifikasiyalar əldə etməsinə imkan verəcək. Nəticədə ixtisasartırma üzrə innovativ proqramların və məzunların sayı hər il əhəmiyyətli sayda artacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



# Azərbaycan dünyada tolerantlıq örnəyi kimi tanınır

## Prezident İlham Əliyevin bu sahədə uğurlu siyasəti dünyada mükəmməl model kimi qəbul edilir

Ölkəmizdə son illər Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırıq və tövsiyələri çərçivəsində bu sahədə uğurlu nailiyyətlərə nail olunub. Hazırda dünyanın müxtəlif yerlərində milli və dini zəmində baş verən qarşıdurmaların daha da dərinləşməsi narahatlıqlar doğurur. Müasir dövrümüzün acı həqiqətlərindən biri də odur ki, bəzən heç də hər kəs birgə yaşadığı digər millətin mədəniyyətinə, dininə və digər mənəvi dəyərinə hörmət etmək istəmir. Bu da nəticə etibarilə müəyyən toqquşmalara, savaşlara, birgəyaşayış qaydalarının gərginliyinə, ən nəhayət, qanlı hadisələrin baş verməsinə səbəb olur.

Bu sahədə Azərbaycanda vəziyyət tamamilə fərqlidir. Lakin bu fərqli mühit yeni yaranmayıb. Görünən odur ki, ölkəmizi fərqləndirən cəhət ilk növbədə ondan ibarətdir ki, əsrlərboyu bu ərazidə yaşayan bütün dinlərin və etnosların təmsilçiləri bir-birilərinin mədəni və mənəvi baxışlarına sayğı göstəriblər.

Ölkəmizdə tarixin heç bir dönəmində dini və ya mili zəmində qarşıdurmalar, azacıq da olsa ziddiyyətlər meydana çıxmayıb. Bu da onu deməyə əsas verir ki, Azərbaycanda tolerantlıq ənənəsinin əsası hələ qədim dövrlərdən qoyulub. Azərbaycanda hər zaman başqa xalqlara və dinlərə ehtiramla yanaşmaq ənənəsi yaranıb. İllər, əsrlər ötsə də bu münasibət nəinki dəyişməyib, əksinə, daha da dərinləşib. Beləliklə, tarixin dərin qatlarından süzülüb gələn milli və dini tolerantlığın Azərbaycan modeli formalaşıb.

Ölkəmiz öz müstəqilliyinə qovuşduqdan sonra xalqımızın əsrlərboyu yaşatdığı bu dəyər dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrildi. Məhz Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra ictimai-siyasi sabitliyin bərpa olunması bütün xalqların və dinlərin nümayəndələrinin əvvəlkitək mehriban şəkildə birgə yaşayışını təmin etdi. Ölkə ərazisində milli və dini zəmində separatçılıq toxumu səpən bütün zərərli qruplaşmaların fəaliyyətinin qarşısı qətiyyətlə alındı. 1995-ci ildə qəbul edilən Azərbaycan Konstitusiyası ölkəmizdə yaşayan bütün azsaylı xalqların və dinlərin nümayəndələrinin hüquqlarını, vicdan azadlığını təsbit etdi.

Son 18-19 ildə Azərbaycanın bir dövlət kimi bu sahədə keçdiyi sürətli inkişaf yolu hər birimizdə qürur və fəxarət hissi doğurur. Bu dövrdə ölkəmizin özünəməxsus yüksəlişindən yaranan Azərbaycan modeli bir sıra dövlətlərin marağına səbəb olub. Vətənimizi dünyaya tanıdan həm də tolerantlığın Azərbaycan nümunəsidir. Azərbaycanda həyata keçirilən dövlət siyasəti ölkədəki mövcud tolerantlıq mühitini daha da dərinləşdirib, xalqların və dinlərin nümayəndələri arasındakı tarixi dostluq tellərini daha da möhkəmləndirib. Təsadüfi deyil ki, respublikada tolerantlığın tam təmin olunması faktı dəfələrlə müxtəlif beynəlxalq təşkilatların hesabatında öz əksini tapıb.

Ölkəmiz üçün son illərin ən böyük tarixi reallıqlarından biri də Azərbaycanın beynəlxalq tədbirlərə evsahibliyi etməsidir. Bu tədbirlərin bir qisminin mədəniyyətlər və sivilizasiyalar arasında dialoqa həsr olunması xüsusilə diqqəti çəkir. Bu da təsadüfi deyil. Çünki bütün dünya Azərbaycanı tolerant ölkə kimi tanıyır.

Azərbaycandakı tolerantlığın ən gözəl nümunələrindən biri də tez-tez bütün dini icmaların nümayəndələrinin Bakıda bir araya gəlməsidir. Müsəlmanların Ramazan ayında təşkil olunan iftar məclislərində, habelə Məhərrəmlik ayında verilən İmam ehsanlarında Azərbaycanda yaşayan xristianların, yəhudilərin və digər dini icmaların nümayəndələri də iştirak edirlər. Üç əsas səmavi dinin nümayəndəsinin mehriban şəkildə bir araya gəlməsi olduqca nadir hadisədir və sevindirici haldır ki, bu, məhz Azərbaycanda baş verir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, dinlər və məzhəblər arasında dostluq və dözümlülük münasibətlərinin alternativi yoxdur: "Bu gün dünyada tolerantlıq örnəyi kimi tanınan Azərbaycan sivilizasiyalararası dialoqun, beynəlxalq sülh və təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl olaraq zəruri təşəbbüs və çağırışlarla çıxış edir. Son illər ölkəmizdə beynəlxalq humanitar forumların, dünya dini liderlərinin sammitlərinin keçirilməsi, habelə ayrı-ayrı beynəlxalq nümayəndələrin iştirakı ilə bəşəriyyəti narahat edən qlobal problemlər ətrafında birgə müzakirələrin aparılması bunun bariz nümunəsidir. Bu gün bir sıra ölkələrdə şahidi olduğumuz mürəkkəb etno-siyasi proseslər, dinin siyasi ambisiyalara alət edilməsi cəhdləri, radikalizm və ekstremizmin artması göstərir ki, sülh və əmin-amanlıq axtarışında olan dünyamızda multikulturalizmin alternativi olmadığı kimi, müxtəlif dinlər və məzhəblər arasında dostluq və dözümlülük münasibətlərinin də alternativi yoxdur".

Azərbaycandakı tolerantlıq mühitinin inkişafına Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi də öz səlahiyyətləri çərçivəsində layiqli töhfələr verir. Respublikada dini fəaliyyət sahəsində dövlət siyasətinin həyata keçirilməsini təmin edən, dini qurumlarla bağlı qanunvericiliyə riayət olunmasına nəzarəti həyata keçirən komitənin fəaliyyəti ölkəmizdə sağlam dini mühitin qorunub saxlanılmasından ibarətdir. Dini etiqad azadlığının həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılmasında maraqlı olan komitə fəaliyyəti ilə dini konfessiyalar arasında əlaqələrin dərinləşməsinə, qarşılıqlı hörmət, anlaşma və dözümlülük mühitinin möhkəmlənməsinə, mövcud tolerantlığın daha da təkmilləşməsinə xidmət edir.

Azərbaycan tolerantlığının ən bariz nümunələrindən biri 2020-ci ilin 27 sentyabrında başlanan 44 günlük Vətən müharibəsində bütün dünyaya bəlli oldu, 30 ilə yaxın Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistan silahlı birləşmələrinə qarşı müharibədə - istər Birinci Qarabağ savaşında, istərsə də İkinci Qarabağ savaşında, demək olar ki, ölkəmizdə yaşayan bütün azsaylı xalqların övladları iştirak etdilər. Dinindən, irqindən, yaşından və cinsindən asılı olmayaraq, azsaylı xalqlara məxsus bütün insanlar Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çağırışına həmrəy oldular, 44 günlük Vətən müharibəsində tarixi Zəfərin qazanılmasında Ali Baş Komandana və ordumuza dəstək verdilər. Onlardan bu ölüm-qalım savaşında "Vətən sağ olsun!", - deyə şəhid və qazi olanları da var, döyüşdən sağ qayıdanları da. Bu qəbildən olan şəhidlərin adları əbədiləşdirilir, döyüş şücaətlərinə görə dövlət başçısının sərəncamları ilə medallarla təltif edilirlər, ailə üzvlərinə dövlət səviyyəsində qayğı göstərilir, qazilərin müalicəsi və sağlam həyata qayıtması istiqamətində lazımi tədbirlər görülür.

Görünən odur ki, Azərbaycanda bütün millətlərin mehriban və bir-birilərinin adət-ənənələrinə hörmət ruhunda yaşaması həm tarixən, həm də bu gün malik olduğumuz ən böyük mənəvi dəyərlərdən biridir. Bu dəyər həm də ölkəmizin inkişafının və ictimai-siyasi sabitliyinin mühüm şərtləri sırasında yer alır. Azərbaycandakı tolerantlıq mühiti bundan sonra da nümunə olacaq və ölkəmizin yüksəlişinə layiqli töhfəsini verəcək.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# İranın hərbi nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edib







Ölkəmizdə səfərdə olan İran İslam Respublikası Silahlı Qüvvələrinin mütəxəssislərdən ibarət nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qonaqlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anaraq məzarları önünə gül dəstələri düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

# Bölgələrdə DOST mərkəzlərinin açılmasına hazırlıq işləri aparılır

"Şərqi Zəngəzur və Qarabağ DOST proqramı"nın icrasına başlanılıb: Zəngilanın Ağalı kəndində bu ilin may ayında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə ilk "Smart DOST" Xidmət Məntəqəsi açılıb. Şuşa DOST filialının da layihələndirmə işləri artıq tamamlanır. İşğaldan azad edilmiş ərazilərimiz həmin proqram üzrə DOST xidmətləri ilə tam əhatə olunacaq.



Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən kollegiya iclasında bildirilib. Kollegiyanın sədri, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, əhaliyə xidmətlərin vətəndaş məmnunluğuna uyğun təşkili, DOST xidmətləri infrastrukturunun ölkəboyu genişləndirilməsi, xidmətlərin elektronlaşdırılması işlərinin davam etdirildiyini vurğulayıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, kollegiya iclasında qeyd olunub ki, 2019-cu ilin may ayından artıq Bakı şəhəri və Abşeron rayonu üzrə 5 DOST mərkəzi açılıb. 1 milyon 50 min vətəndaş, o cümlədən bu ilin 7 ayında 360 min vətəndaş DOST xidmətlərindən faydalanıb və cari ildə bu xidmətlərdən vətəndaş məmnunluğu 98,7 faiz təşkil edib. Yaxın aylarda Bakıda daha bir DOST mərkəzi açılacaq. Eləcə də Bərdə, Quba, Gəncə, Sumqayıt, Sabirabad, Masallı və digər bir sıra bölgələrimizdə də DOST mərkəzlərinin açılması üçün hazırlıq işləri aparılır. Ümumilikdə 2025-ci ilə kimi 17 regional DOST mərkəzi, 55 rayon üzrə DOST filialları, ayrı-ayrı bölgələrdə "Smart DOST" xidmət məntəqələrinin açılması nəzərdə tutulub.

DOST Agentliyi bu il Avropa Sosial Şəbəkəsinin Avropa Sosial Xidmətlər Mükafatı, Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyasının mükafatı, Beynəlxalq Sosial Təminat Assosiasiyasının 3 mükafatı ilə təltif olunub, "Avropa İttifaqı Biznes Mühiti Hesabatı-2021" nəşrində isə DOST mərkəzləri Azərbaycanda təkmil top 3 islahatdan biri kimi təqdim olunub. Media Təhlil Mərkəzinin operativlik, obyektivlik və kommunikasiya meyarları üzrə keçirdiyi sorğu nəticəsində "Çağrı mərkəzi 142" isə top 3 pillədə yer alıb.

Nazirlik üzrə elektronlaşma proqramı çərçivəsində son illərdə mühüm addımlar atılıb, nazirliyin 175 xidmətindən artıq 110-u elektron, o cümlədən 46-sı proaktiv qaydada göstərilir. Qurum üzrə hazırda daha 40 e-xidmətin yaradılması, nazirlik üzrə e-xidmətlərin sayının bu il 150-yə çatdırılması üçün işlər aparılır. Bu da nazirliyə aid xidmətlərin elektronlaşma səviyyəsinin 90 faizə çatmasına imkan verəcək.

Bu ilin 7 ayında nazirliyin e-xidmətlərinə 142 milyon, e-sosial.az portalına 7,5 milyondan çox müraciət edilib. Nazirliyin fəaliyyət sahələri üzrə 346 minə yaxın elektron arayış verilib. Yanvar-iyul aylarında 171 minə yaxın pensiya, müavinət və təqaüd təyinatı e-sistem üzərindən, proaktiv qaydada (müraciət olunmadan və sənəd təqdim edilmədən) aparılıb.

Nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən 2022-ci ilin 7 ayında 38 min 900 şəxsə əlillik təyin edilib. Həmin dövrdə agentliyin reabilitasiya mərkəzlərində 24 min şəxsə reabilitasiya xidməti göstərilib, 8 min 79 şəxsə 35 min 400 reabilitasiya vasitəsi verilib.

İclasda yeni DOST mərkəzlərinin açılması və elektronlaşma proqramının icrası, tibbi-sosial ekspertiza, reabilitasiya, həssas qruplara sosial dəstək, kadr hazırlığı sahəsində görülən işlər və qarşıda duran vəzifələr müzakirə olunub.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev avqustun 19-da Göyçay rayon Mərkəzi Xəstəxanasında Göyçay, Zərdab və Ucar rayonlarının sakinlərini qəbul edib.

AZƏRTAC İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin rəsmi instaqram səhifəsinə istinadla bildirir ki, görüşdən əvvəl Zaur Əliyev Ümummilli Lider Heydər Əliyevin Göyçay şəhərindəki abidəsini ziyarət edib. Abidə önünə gül dəstələri qoyulub, Ulu Öndərin xatirəsi ehtiramla yad olunub.

Göyçay, Zərdab və Ucar rayon mərkəzi xəstəxanalarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda 60-dan çox vətəndaşın müraciətinə baxılıb. Vətəndaşların müraciətləri əsasən əlillik məsələləri, iş və əmək münasibətləri, müayinə-müalicə, icbari tibbi sığorta çərçivəsində ixtisaslaşdırılan tibb müəssisələrinə göndəriş vərəqələrinin verilməsi, dərman təminatı ilə bağlı olub. Müraciətlər diqqətlə dinlənilib və bir sıra məsələlər yerində həll olunub. Digər müraciətlərin araşdırılması və qanunvericiliyə uyğun baxılması məqsədilə müvafiq tapşırıqlar verilib.

Eyni zamanda agentliyin sədri Göyçay, Zərdab və Ucar rayon mərkəzi xəstəxanalarında işlə təmin olunan Vətən müharibəsi iştirakçısı və şəhid ailə üzvləri ilə görüşüb.

Qeyd edək ki, qəbul Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən "Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2022-ci ilin avqust ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli"nə uyğun olaraq keçirilib. Vətəndaşların səyyar şəkildə qəbul edilməsi bölgələrdə müraciətlərin daha operativ baxılmasına, onların həlli istiqamətində optimal qərarların verilməsinə və vətəndaş məmnunluğunun artırılmasına xidmət edir.

# "Snayper həddi" müsabiqəsinin növbəti mərhələsi başlayıb





"Beynəlxalq Ordu Oyunları-2022" yarışları çərçivəsində İran İslam Respublikasının Yəzd şəhərində keçirilən "Snayper həddi" müsabiqəsində ikinci mərhələnin epizodlarının icrası üzrə sıralamanı müəyyənləşdirmək məqsədilə püşkatma mərasimi keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, püşkatmanın nəticələrinə əsasən, Azərbaycan komandası çalışmaları yeddinci sırada yerinə yetirəcək. Daha sonra müsabiqənin planına uyğun olaraq ikinci mərhələyə hazırlıq prosesinə start verilib. Hərbi qulluqçular tapançalardan sınaq atışları həyata keçiriblər.

Qeyd edək ki, beynəlxalq müsabiqənin ikinci mərhələsində snayperlər cütlük şəklində mübarizə aparacaqlar.

# Dünyada gedən proseslər çörək və un məmulatlarının qiymətinə təsirsiz qalmır

## Azərbaycanda əsassız qiymət dəyişikliyinin qarşısının alınması məqsədilə istehlak bazarında mütəmadi monitorinqlər aparılır

*Əvvəli 1-ci səh.*

Başqa sözlə, COVID-19 pandemiyasının təsirləri və dünya iqtisadiyyatında yaranan qeyri-müəyyənliklər səbəbindən təchizat zəncirlərinə mütəmadi təzyiqlərin yaranması, logistik xərclərin yüksəlməsi, bir çox ölkələrin tələbdən artıq ehtiyat yaratması və buğda istehsalçısı olan ölkələrin daxili bazarı qorumaq məqsədilə müxtəlif proteksionist tədbirləri fonunda dünya bazarlarında ərzaqlıq buğdanın qiymətində artım davam etməkdədir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatına əsasən, bu ilin iyul ayında keçən ilin müvafiq ayı ilə müqayisədə ərzağın dünya üzrə qiymət artımı 13,1 faiz səviyyəsində dəyərləndirilir. Sözügedən təşkilatın proqnozlarına əsasən, cari ildə ümumilikdə qlobal istehsalın həcminin azalacağı gözlənilir. Bununla yanaşı, ölkəmiz üçün xüsusilə önəmli olan məsələlərdən biri ən böyük ərzaqlıq buğda istehsalçılarından və Azərbaycana ixrac edilən buğdanın əsas mənbə ölkəsi olan Rusiyanın 2021-ci ilin fevral ayından tətbiq etdiyi yüksək ixrac tariflərinin hələ də qüvvədə qalmasıdır.

Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatının ayrılmaz hissəsidir. Odur ki, dünyada gedən iqtisadi proseslər ölkəmizə də təsir edir. Xüsusilə taxıl qıtlığı bu gün müzakirə olunan başlıca mövzulardan birinə çevrilib. Təsadüfi deyil ki, Prezident İlham Əliyev İsmayıllı rayonuna səfəri zamanı Basqal qəsəbəsində Azərbaycan televiziyasına verdiyi müsahibədə bu məsələyə xüsusi olaraq toxunub: "Əfsuslar olsun ki, biz özümüzü taxılla hələ uzun illər tam təmin edə bilməyəcəyik. Özümüzü buğda ilə təminetmə əmsalı Azərbaycanda bu ilin əvvəlinə 62 faiz idi. Məhz bu məqsədlə xüsusi proqram işlənib hazırlandı, yeni növ subsidiyaların tətbiq edilməsinə start verildi və bunun nəticəsində əminəm ki, ərzaqlıq buğdanın Azərbaycanda istehsalı kəskin artacaq. Ancaq bu, vaxt tələb edəcək. Mən hesab edirəm ki, təqribən 3-4 il ərzində biz özümüzü ərzaqlıq buğda ilə 80 faiz səviyyəsində təmin edə bilsək, bu, çox böyük nəticə olacaqdır".



Bu gün isə dünya bazarlarında müşahidə olunan vəziyyət və ixracın məhdudlaşması ilə əlaqədar ölkəyə taxıl və un idxal edən sahibkarlıq subyektləri ciddi qiymət təzyiqləri ilə üzləşiblər. Cari ilin iyul ayında ölkəyə ərzaqlıq buğdanın orta idxal qiyməti 402,46 dollar təşkil edib ki, bu da 2021-ci ilin müvafiq ayı ilə müqayisədə 67 faiz (orta idxal qiyməti 241 dollar), dekabr ayı ilə müqayisədə isə 18,4 faiz (orta idxal qiyməti 339,89 dollar) yüksəkdir.

Xəbər verildiyi kimi, bu il avqustun 19-da iri un və çörək istehsalçıları birgə məlumat yayıblar. Məlumatda deyilir: "Bununla belə, ötən il ərzaqlıq buğdanın dünya üzrə kəskin bahalaşmasının Azərbaycana təsirinin azaldılması məqsədilə hökumətin ayırdığı subsidiyalar hesabına buğda və unun qiyməti real qiymətlərdən aşağı saxlanılıb. Subsidiyalar hesabına bu qiymətlərin uzunmüddətli dövrdə liberal iqtisadi tələblərə zidd olaraq qeyri-real səviyyədə saxlanılması mümkün olmadığından, cari ilin əvvəlindən etibarən ərzaqlıq buğda tədarükü və un istehsalı ilə məşğul olan sahibkarlıq subyektləri unun qiymətini ərzaqlıq buğdanın ilin əvvəlinə olan idxal qiymətinə uyğunlaşdırıb. Un istehsalçıları çörək və un məmulatlarının qiymətini 2022-ci ilin taxılın biçin-tədarük dövrünədək göstərilən səviyyədən yuxarı qalxmaması üçün bütün səylərini səfərbər ediblər və ötən dövr ərzində ərzaqlıq buğdanın qiymətində artımlar baş versə də, unun qiymətində artım olmayıb. Bununla belə, dünya bazarında həmçinin əsas idxal bazarlarında taxılın qiymət dinamikasında artımın davam etməsi qiymətlərin yenidən uyğunlaşdırılmasını zəruri edir".

İri un və çörək istehsalçıları həmçinin bildiriblər ki, yaranmış vəziyyətdə idxal qiymətləri (ərzaqlıq buğdanın son üç ay üçün orta aylıq idxal dəyərinin 365 dollar səviyyəsində olması) və emal xərcləri nəzərə alınmaqla, qiymətlərin yuxarı hədləri müəyyənləşdirilib. 50 kiloqramlıq bir kisə unun Bakı şəhərində ən yüksək qiymət həddi 40,70 manat olacaq.

Bir daha vurğulayaq ki, Azərbaycanda ərzaqlıq buğda, un və çörəyin qiyməti tənzimlənən tariflərlə deyil, bazar iqtisadiyyatı prinsiplərinə uyğun olaraq, tələb-təklif əsasında və ərzaqlıq buğdanın dünya bazarındakı (o cümlədən əsas idxal bazarlarındakı) qiymətinə görə formalaşır. "Sahibkarlıq fəaliyyəti haqqında" qanuna əsasən sahibkarlar öz məhsulları (işləri, xidmətləri) üçün qiymətləri sərbəst müəyyən edirlər. Bununla belə, dünya ərzaq bazarında qiymətin artımı fonunda ölkəmizdə un və çörəyin qiymətində manipulyasiyalara yol verilməməsi üçün İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qanunamüvafiq tədbirlər həyata keçirir. Belə ki, dövlət xidməti əsassız qiymət dəyişikliyinin qarşısının alınması, qiymət formalaşması zamanı antiinhisar qanunvericiliyinə riayət olunmasına nəzarət məqsədilə istehlak bazarında mütəmadi monitorinqlər aparır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

Əsrin bəlası

# Narkomaniyaya qarşı mübarizədə qətiyyətli addımlar atılır

Ötən yüzilliyin bəlalarından sayılan narkomaniya təəssüflər olsun ki, XXI əsrdə də qlobal problemlər sırasında qalmaqdadır. Bu xəstəliyə tutulmuş şəxslər özlərini cəmiyyətdən təcrid edirlər. Bu da onların ətrafdakı insanlara münasibətini dəyişir. Belə insanlara cəmiyyətin hər bir təbəqəsində rast gəlmək olur.

Narkomanlıq eynilə narkotiklərin qanunsuz dövriyyəsinin coğrafiyası kimi sərhəd tanımır. Bu dəhşətli bəla dinindən, dilindən, irqindən, sosial vəziyyətindən və s. asılı olmayaraq hamı üçün eyni dərəcədə təhlükəlidir. Bu bəla cinayətkarlığı, zorakılığı və korrupsiyanı yaradır, QİÇS-in sürətlə artmasına təkan verir, sosial-iqtisadi inkişafı ləngidir, ailə və icmaları dağıdır.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, hazırda Yer kürəsinin 250 milyon sakini planetimizin ən qlobal problemlərindən birinə çevrilən "ağ ölüm"ün əsirinə çevrilmişdir. Bunun 47 milyon nəfəri Latın Amerikası ölkələrinin payına düşür. Təkcə Meksikada narkomaniyanın bəlasına düçar olmuş insanların sayı 1 milyon 200 min nəfəri ötmüşdür. Avropa Birliyi ölkələrinə gəldikdə isə, orada 750 minə yaxın insan narkotik maddə istifadəçisidir. MDB və Asiya ölkələrində bu göstərici 26 milyondan çoxdur. Onu da qeyd edək ki, ekspertlərin fikrincə, bu rəqəm tam real gerçəkliyi əks etdirmir. Çünki narkomanların heç də hamısı qeydiyyata düşmür.

### Uğurla davam etdirilən tədbirlər

Müstəqilliyimizin ilk illərindən başlayaraq Ulu Öndər Heydər Əliyev narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni ümumdövlət vəzifəsi hesab edərək, cəmiyyətimizin sağlam inkişafının vacibliyini vurğulayaraq demişdir: "Narkomaniya və narkobizneslə mübarizə hər bir ölkənin, xalqın, millətin fiziki və əqli sağlamlığı uğrunda aparılan mübarizədir". Bu strateji kurs Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Hazırda problemə dəyişən şərait və yeni tələblərə uyğun şəkildə yanaşma əsas vəzifələrdən birinə çevrilmişdir. Aidiyyəti dövlət orqanları tərəfindən Prezident İlham Əliyevin 2019-cu il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" icra olunmaqdadır.



### "Ağ ölüm"ə qarşı mübarizə gücləndirilib

Son dövrlər hüquq-mühafizə orqanları tərəfindən narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə işi gücləndirilib, onların qeyri-qanuni daşınmasına qarşı əməliyyatlar keçirilib, müxtəlif marşrutlar ilə narkotiklərin daşınması hallarının aşkarlanması üzrə məqsədyönlü iş davam etdirilib, cinayətkarlardan külli miqdarda narkotik vasitələr götürülüb.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən qəzetimizə verilən məlumata görə, 2022-ci ilin əvvəlindən indiyədək narkotiklə bağlı 5610 fakt qeydə alınıb: "Onlardan 1611-i narkotik maddələrin satışıdır. Ümumilikdə cari ilin 8 ayı ərzində 2 ton 340 kq narkotik vasitə qeyri-qanuni dövriyyədən çıxarılıb. Onlardan 936 kq marixuana, 1 ton 171 kq heroin, 111 kq isə tiryəkdir. Keçirilən tədbirlərlə 247 kq metomfetamin aşkar olunaraq dövriyyəsinin qarşısı alınıb. Ümumilikdə cari ilin ilk 6 ayı ərzində narkotiklə bağlı 4004 nəfər cinayət məsuliyyətinə cəlb edilib. Onlardan 109 nəfəri qadındır. Daxili işlər orqanları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar tədbirlər davam etdirilir. Heç bir halda narkotik faktı ilə əlaqəli hala qarşı münasibətdə etinasızlığa yol verilmir".

Nazirlik tərəfindən cari ilin yanvar-iyun ayları ərzində bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 41 min 576 nəfər istiqamətləndirilib. Onlardan narkotiklərdən istifadənin təyin edilməsi məqsədilə tibbi müayinədən keçirilmiş 1224-nün istifadəçi olduğu müəyyən edilib və bununla bağlı zəruri tədbirlər görülüb. Hesabat dövründə 2 min 947 nəfər stasionar müalicədə olub. Hazırda metadonla əvəzedici müalicə proqramı üzrə 3 məntəqədə 942 xəstə müalicə alır.

Səhiyyə Nazirliyinin məlumatına əsasən, 2020-ci ilin 31 dekabrınadək respublika üzrə narkomanlıq diaqnozu ilə qeydiyyatda olanların sayı 34 min 602 nəfər təşkil edib. Həmin şəxslərdən 27 min 106 nəfəri dispanser, 7 min 496 nəfəri profilaktik qeydiyyatda olanlardır. Onlardan 556 nəfəri qadındır. 24 min 850 nəfər opioid qrupuna aid narkotik istifadəçisi, 9 min 752 nəfər kannabinoid qrupuna aid narkotik istifadəçiləridir. 2021-ci ildə müvafiq diaqnozla 5 min 603 nəfər qeydiyyata götürülüb, 4 min 789 nəfər isə qeydiyyatdan çıxarılıb.

### Gələcəyimizi birlikdə düşünək

Bu bəladan qurtulmağın müxtəlif yolları var. Məqsəd bu bəlaya yoluxmanın qarşısını almaqdır. Burada hər kəsin sosial vəzifəsi var. Gənclərimizi, uşaqlarımızı bu bəladan uzaq tutmaq, onlarla söhbətlər aparmaq, "ağ ölüm"ün fəsadlarından danışmaq və daha ciddi tədbirlər görmək lazımdır. İnsanlar narkomanlığın necə bir bəla olduğunu dərk edərsə, əlbəttə, bu bəladan uzaq durar və ətrafını da qorumağa çalışarlar.

Bu problemlərlə mübarizədə yeganə yol sağlam həyat tərzinin təbliği və maariflənmənin gücləndirilməsidir. Eyni zamanda narkotik tranzitinin qarşısının uğurla alınması da çox mühüm mübarizə vasitəsidir. Narkotik maddələrin qanunsuz dövriyyəsi və narkomanlığa qarşı mübarizə sahəsində dövlət orqanlarının qeyri-hökumət təşkilatları ilə yaxından əməkdaşlıq etməsi, əlaqəli işləməsi təqdirəlayiq hal hesab edilməlidir. Narkomaniya bəşəriyyətin mübarizə apardığı arzuolunmaz xəstəlik, sağlamlığın və mənəviyyatın qənimidir. Ona görə də hər kəs insanlığa bəla olan bu problemlə mübarizədə fəal olmalıdır.

***Elşən YƏHYAYEV,***
***"Azərbaycan"***

# Məsuliyyətsizlik və etinasızlığın nəticəsi

## Meşə yanğınlarının əsas səbəbi insan amilidir

Qlobal iqlim dəyişiklikləri, xüsusən yay aylarında yüksək temperatur meşə yanğınlarına səbəb ola bilir. Hazırda dünyanın müxtəlif ölkələrində planetin "ağciyərləri" olan meşələrimizdə yanğınlar baş verir. Qlobal istiləşmənin, havadakı zərərli maddələrin azaldılması məqsədilə meşə örtüyünün artırılması üçün tədbirlər görüldüyü zamanda yaşıl sahələrin yanıb külə çevrilməsi ürəkağrıdıcıdır. Hektarlarla ərazidə məhv olan ağacların yenidən əkilməsi, böyüməsi, torpağın bərpa olunması üçün isə uzun illər lazım gəlir.

### Biçilmiş taxıl sahələrinin biləkdən yandırılması, meşələrdə ocaqların nəzarətsiz qalması...

Bu il də meşə yanğınları Azərbaycandan yan keçmədi. Belə ki, artıq bir həftəyə yaxındır ki, respublikanın şimal və şimal-qərb regionlarında meşə və meşəətrafı ərazilərdə yanğınlar başlayıb. Şabran, Qəbələ, Quba, Siyəzən və Xaçmaz rayonlarında meşə və meşəətrafı ərazilərdə baş vermiş yanğınlarla mübarizə tədbirlərində müvafiq dövlət qurumlarından ümumilikdə 1140 nəfərdən çox canlı qüvvədən və müxtəlif təyinatlı 120 ədəd texnikadan istifadə edilir. Yanğınla mübarizə tədbirlərində FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin, Şimal və Şimal-qərb Regional mərkəzlərinin, Mülki Müdafiə qoşunlarının və Xüsusi Riskli Xilasetmə Xidmətinin 740 nəfərdən çox şəxsi heyəti və 80-ə qədər xüsusi texnikası, o cümlədən FHN-in Aviasiya dəstəsinə məxsus "BE 200 ÇS" amfibiya təyyarəsi və 2 ədəd helikopteri iştirak edir.

Bundan əlavə, yanğınların söndürülməsi əməliyyatlarına Ekologiya və Təbii Sərvətlər Nazirliyi Meşə Təsərrüfatı Mərkəzinin və yerli icra hakimiyyətlərinin 400 nəfərdən çox canlı qüvvəsi və 40-dan çox texnikası cəlb edilib. Həmçinin yanğınların qarşısının alınması işlərində Daxili İşlər Nazirliyinin və "Azərsu" ASC-nin əməkdaşları da yaxından iştirak edirlər.

Mütəxəssislər qeyd edirlər ki, yanğınların əsas səbəbi təhlükəsizlik qaydalarının pozulması ilə əlaqədardır. Bildiyimiz kimi, yay aylarında meşələrə gedərək asudə vaxt keçirən insanların sayı artır ki, onların da məsuliyyətsiz davranışları və diqqətsizlikləri nəticəsində hektarlarla meşə ərazisi, yaşıllıq məhv olur, eyni zamanda heyvanların ölümü ilə nəticələnir. Məsələn, biçilmiş taxıl sahələrinin bilərəkdən yandırılması, meşələrdə ocaqların nəzarətsiz qalması, nəzərdə tutulmayan ərazilərdə ocaqların yandırılması, siqaret qalıqlarının meşə ərazisinə və ya yol kənarlarına atılması belə yanğınlara səbəb olur.

### Əhaliyə müraciət edilsə də, məsuliyyətsiz davranışlar davam edir

Havalar istiləşəndə, mövsümlə əlaqədar əhaliyə xəbərdarlıq olunsa da, bununla bağlı maarifləndirmə tədbirləri görülsə də, bəzi insanlar məsuliyyətsizliklərindən əl çəkmirlər. Bir insanın məsuliyyətsizliyi isə böyük fəlakətlərə səbəb olur.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi son günlərdə havanın temperaturunun yüksələcəyini nəzərə alaraq əhaliyə çağırış etmişdi. Müraciətdə qeyd olunmuşdu ki, son günlər dünyada, eləcə də ölkəmizdə temperaturun daha da yüksəlməsi, iqlim şəraitində quraqlığın müşahidə olunması təbiət ərazilərində yanğınların başvermə təhlükəsini artırır: "Hazırda ölkə ərazisində müşahidə olunan isti və quraq hava şəraiti səbəbindən təbiət əraziləri, yaşıllıqlar, o cümlədən otlaq sahələri, meşə massivləri yanğına daha həssasdır. Bunları nəzərə alaraq hamımız təbiət qoynuna çıxanda daha da diqqətli olmalı, davranışlarımızı maksimum dərəcədə ehtiyatlılıq üzərində qurmalıyıq. Hər kəsdən, o cümlədən meşə ərazilərinə yaxın kəndlərin əhalisindən, təbiət qoynunda istirahət edən turistlərdən xahiş edirik ki, qızmar yay günlərində yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl etsinlər, odla ehtiyatlı davransınlar, söndürülməmiş siqaret kötüklərini ətrafa atmasınlar. Bilməliyik ki, hər birimizin ani ehtiyatsızlığı və etinasızlığı qarşısıalınmaz yanğınlara səbəb ola bilər".



### 4 min hektara yaxın əraziyə ziyan dəyib

Yanğın başladığı gündən ETSN nümayəndələri həmin rayonlara səfərbər olunublar. Qubada olan ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əliyev qeyd edir ki, avqustun 15-dən şimal bölgəsində başlayan yanğınlar Şabran, Siyəzən, Quba və Xaçmaz rayonları olmaqla, böyük ərazini əhatə edib və bu, son dövrlərdə baş verən ən böyük yanğın hadisəsidir. Nazir müavininin sözlərinə görə, təbiətə böyük ziyan dəyib. İlkin hesablamalara görə, yanğın bələdiyyə, dövlət fondu torpaqları, eləcə də meşələr olmaqla, ümumilikdə 4 min hektara yaxın əraziyə ziyan vurub.

Yanğının əsas səbəbinin insan amili ilə bağlı olduğunu deyən Firdovsi Əliyev deyir ki, ölkəmizdə baş verən yanğınların 98 faizi insanların təsiri ilə baş verib: "Ötən beş gün ərzində güclü küləyin sürəti bəzən 18-22 km/san çatırdı. Yanğını fiziki cəhətdən söndürmək mümkünsüzləşirdi. Vətəndaşlarımızdan xahiş edirik ki, yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl etsinlər".

### Vətəndaşlar bütün sahələrdə gördüyü işlərdə diqqətli olmalıdırlar

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin inkişafı xidmətinin rəisi Xalıqverdi Hüseynov qəzetimizə açıqlamasında deyib ki, 15 avqustdan etibarən şimal regionunda yanğın başlayıb.

Onun sözlərinə görə, Şabranın Dağbilici kəndi ətrafında başlayan yanğın orada biçilmiş taxıl sahələrinin bilərəkdən və ya hər hansısa səbəbdən yandırılması nəticəsində baş verib. Xidmət rəisi deyir ki, yanğın kənd ərazisinə daxil olaraq bir sıra şəxsi təsərrüfatlara ciddi ziyan vurub, avqustun 16-da isə meşə fonduna keçib. Aidiyyəti bütün qurumlar yanğının meşə ərazisinə keçməməsi üçün ora səfərbər olunsa da, havanın isti və küləkli keçməsi yanğının qarşısını tam almağa imkan vermədi. Eyni vaxtda Quba kəndlərinin yaxınlığında da yanğın hadisələri baş verdi.

O, qeyd edir ki, yanğınsöndürmə əməliyyatları əksəriyyəti texnikanın və şəxsi heyətin hərəkəti üçün əlverişsiz olan mürəkkəb dağlıq relyefdə həyata keçirilir. Bəzi ərazilərdə yanğınlar lokallaşdırılsa da, bu hələ işin tamı deyil, çünki ağac kötüklərinin külək nəticəsində yenidən alışması yanğına səbəb ola bilir.

Xalıqverdi Hüseynovun sözlərinə görə, hazırda isti ilə əlaqədar güclü quraqlıq var ki, bir siqaretin atılması yanğına səbəb ola bilər. Həmçinin yanğınların yayılma ehtimalı çoxdur.

Xidmət rəisi bir daha vətəndaşlara müraciət edib: "Vətəndaşlar bütün sahələrdə gördüyü işlərdə - istər bağ sahələrində, istər pay torpağında, istərsə də meşəyə istirahətə getdikdə diqqətli olmalıdırlar. Meşə Məcəlləsində də göstərilir ki, havanın temperaturu yüksək olduqda, yanma təhlükəsi yarandığı halda vətəndaşların meşə ərazisinə daxil olması qəti qadağandır. Piknik məqsədilə tonqalların yandırılması sonra ciddi fəsadlara gətirib çıxarır. Bu istiqamətdə təbliğat işləri aparırıq. Yenə də deyirik ki, əhali diqqətli olsun, yanğın olduğu halda onun söndürülməsi üçün səfərbər olsun".

### İki rayonda meşə yanğınları söndürülüb

Fövqəladə Hallar Nazirliyinin son məlumatına görə, avqustun 15-dən etibarən Qəbələ rayonunun Abrıx və Tikanlı kəndləri yaxınlığında və Tufandağ ərazisində, eləcə də Xaçmaz rayonunun Sibiroba kəndi yaxınlığındakı əkin yerlərində və meşə massivində qeydə alınmış yanğınlar tam söndürülüb.

İlkin məlumata əsasən, yanğın nəticəsində Qəbələ rayonunun Abrıx və Tikanlı kəndləri yaxınlığında və Tufandağ ərazisində təqribən 4 hektar ərazidə kol-kos və qurumuş ağaclar, eləcə də Xaçmaz rayonunun Sibiroba kəndi yaxınlığındakı əkin yerlərində və meşə massivində ümumilikdə 32 hektar ərazidə biçilmiş taxıl sahəsi, kol-kos və qurumuş ağaclar yanıb.

Sağlam həyat, təmiz hava, müəyyən proseslərin qarşısının alınması üçün meşə fondu ərazilərinin, yaşıllıqların artırılmasına ehtiyac var. Bu istiqamətdə durmadan çalışmaq lazımdır. Bu isə yalnız dövlət qurumlarının deyil, hər bir vətəndaşın üzərinə düşən öhdəlikdir. Bu baxımdan etinasız davranmayaraq yaşıllıqları qorumalı, bacardığımız qədər belə sahələri artırmalı, ağacları kəsməməli, onların böyüyüb oksigen mənbəyinə çevrilməsinə imkan verməliyik.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# REGİONLAR














# Buna siyasətdə multikulturalizm, el arasında isə dostluq deyirlər...

## Yolumuz Qaxın əsasən gürcülər yaşayan Meşəbaş kəndinədir

*Əvvəli 1-ci səh.*

Magistral yoldan kəndin mərkəzinə uzanan asfalt yol burada inkişafın ilkin nişanəsidir. Abad kənd yolundan bəllidir, deyiblər.

Yaşıllıqlar boyu uzanan 2 kilometrlik bu asfalt yol bizi son illər tikilib istifadəyə verilmiş, kəndin mərkəzində yerləşən yeni, müasir məktəbə aparır. Məktəb 9 illik təhsil verir. Binanın bir korpusunda isə birqruplu uşaq bağçası yerləşdirilib. Məktəb və bağça müasir avadanlıqlarla təchiz olunub. Bir sözlə, kənd uşaqlarının təlim-tərbiyəsi üçün hər cür şərait yaradılıb.

Kənddə 80 şəxsi təsərrüfat var. 300 nəfər sakini olan bu kəndin sakinləri bağdan-bağçadan əldə etdikləri gəlirlə dolanırlar. Sovet dönəmində Nizami adına kolxozun üzvü olan Meşəbaş kənd sakinləri bu gün öz pay torpaqlarında çalışır, mal-qara bəsləyirlər. 70 il içməli su sarıdan əzab çəkən Meşəbaşda indi dörd artezian quyusu var. Kənd adamları bu problemlərin həllinə çox sevinirlər. Son 10 ildə kənd həm də mavi yanacaqla təmin edilib. Qaz xətti çəkilən gün kənddə əsl toy-bayram olub. Hamı bir-birini təbrik edib. Bütün bunlar dövlətin öz vətəndaşına bitib-tükənməyən diqqət və qayğısı kimi dəyərləndirilir.

Uzun illər kənd məktəbinin direktoru işləmiş, hazırda orada tarix fənnini tədris edən İra Məcidova meşəbaşlıların minnətdarlıq dolu diləklərini bizimlə bölüşdü:

- Meşəbaş mənim doğulub boya-başa çatdığım yerdir. Atam azərbaycanlı, anam gürcü olub. Burada bir neçə belə ailə var. Əhalinin əksəriyyətini gürcülər təşkil edir. Kəndin mərkəzində XIX əsrin əvvəllərində tikilən kilsə hər kəsin üzünə açıqdır. Burada dini ayinlər keçiririk. İki millətin əsrlər boyu qardaş kimi mehriban yaşaması əslində Azərbaycanın multikulturalizm və tolerantlıq ənənələrinə necə sadiq qalan bir ölkə olduğunu təsdiqləyir. Belə bir ölkənin vətəndaşı olduğumuz üçün fəxarət duyuruq. Uzun illər kəndimizdə bir çox problemlər yaşanıb. Əvvəllər məktəbimizin binası, sözün həqiqi mənasında, fəlakət mənbəyi idi. İçməli suya həsrət idik. Daşlı-kəsəkli yollarımız daim toz-duman içində olardı. Hələ uçuq-sökük kənd evlərini demirəm. Cavanlar kənddə qalmırdı. İndi tamam başqadır kəndimiz. Fərdi evlərdən tutmuş ictimai binalara qədər müasirləşib. Hər cür rahatlığımız var. Bir sözlə, kəndimiz müasir, abad bir kənd olub. Sonda bircə onu deyim ki, Azərbaycanda yaşamaq çox xoşdur. Bunun üçün dövlətimizə, Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarıq.

Bu minnətdarlıq hissi oymaq-oymaq dolaşır bütün Azərbaycanı. Çünki bu gün doğma Azərbaycanımızın hər guşəsi bir cənnətdir.

***Xavər ƏFƏNDİYEVA,***
***Qax rayonunda çıxan "Şəlalə" qəzetinin redaktoru***

# Pambıqçılar məhsul yığımına hazırlaşırlar

Kürdəmir rayonunun pambıq tarlalarında məhsul yığımına ciddi hazırlıq işləri görülür.



Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən bildirilib ki, builki mövsümdə Kürdəmirdə 2067 hektar sahədə "ağ qızıl" əkilib. Aqrotexniki qulluq işləri vaxtında və keyfiyyətlə aparıldığından tarlalarda bol məhsul yetişir. Hazırda 3-cü vegetasiya suyunun verilməsi başa çatmaq üzrədir. Rayonun daha çox pambıq yetişdirilən Şilyan, Qarasu, Muradxan, Sor-sor, Mollakənd və Carlı ərazi icra nümayəndəliklərində yığıma daha ciddi hazırlıq işləri aparılır. Bu ərazilərdə hər hektardan orta hesabla 30 sentnerdən çox məhsul gözlənilir.

Qeyd edək ki, tarlalarda məhsulun 85-90 faizinin pambıqyığan maşınlarla yığılacağı nəzərdə tutulur. Əl ilə yığıma 500 nəfərdən artıq işçi qüvvəsi, habelə kifayət qədər texnika cəlb ediləcək.

# Subartezian quyuları bərpa olunacaq



Ağcabədi Suvarma Sistemləri İdarəsinin əsas fəaliyyəti idarənin balansında olan 2261 km suvarma kanalı, 2549 km kollektor drenaj şəbəkəsi, 4445 hidrotexniki qurğu, 53 elektrik nasos stansiyası, 1026 subartezian quyusu, 8 SNP markalı səyyar nasoslar, 2 üzən nasos, 3 inzibati və 16 yaşayış binasının istismarı və təmiri ilə məşğul olmaqla, 63000 hektar əkin sahəsini suvarma suyu ilə təmin etməkdən ibarətdir. İdarə tərəfindən suvarmanı yaxşılaşdırmaq üçün bir sıra təxirəsalınmaz işlər görülür. 2022-ci ildə əkilmiş kənd təsərrüfatı bitkilərinin 13000 hektarı nasoslarla, 23291 hektarı öz axımı ilə, 26709 hektarı isə artezianlarla suvarılıb.

Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətindən bildirilib ki, idarə tərəfindən cari ildə kollektor-drenaj şəbəkələrinin lildən təmizlənməsi, 134 ədəd subartezian quyusunun cari təmiri, həmçinin balansda olan nasos stansiyalarda təmir işləri həyata keçirilib. Belə ki, "Salmanbəyli-9" nasos stansiyasında bir, "Xocavənd-1" nasos stansiyasında da bir ədəd elektrik mühərriki təmir olunub. Hazırda suvarmanın yaxşılaşdırılmasında daim işləyən nasos stansiyalar və subartezian quyuları fasiləsiz olaraq sahələrə xidmət göstərirlər. İdarə tərəfindən yeraltı suların aşağı səviyyəyə düşməsi nəticəsində batan subartezian quyularının da yenidən bərpası nəzərdə tutulur ki, artıq bu quyular plana uyğun bərpa olunacaq.

Qeyd edək ki, Ağcabədi rayonunda əsas su mənbəyi Yuxarı Qarabağ kanalı, Araz çayının qolu olan Xan qızı kanalı və subartezian quyularıdır.

# Lahıca 78 mindən çox turist səfər edib

Gözəl flora və faunası olan İsmayıllı Azərbaycanın turizm cəhətdən inkişaf edən rayonlarındandır və bu gün bölgəyə gələn turistlərin ən çox üz tutduqları məkanlardan biri Lahıc qəsəbəsidir.

Böyük Qafqazın cənub yamaclarında, uca dağlar qoynunda yerləşən Lahıc qədim şəhərsalması ilə memarlığın orijinal nümunəsidir. Orta əsrlərdə şəhər kimi salınan, küçə və meydanlarına daş döşənmiş, kanalizasiya və su təchizatı sisteminə malik olan Lahıc Qafqazda və hətta onun hüdudlarından kənarda tanınan sənətkarlıq və ticarət mərkəzlərindən biri olub. Burada hazırlanan soyuq silahlar və naxışlı mis əşyalar onu daha da məşhurlaşdırıb. Bu gün dövlət tərəfindən tarixi-memarlıq abidəsi kimi qorunan Lahıc böyük İpək yolu üzərində beynəlxalq turizm marşrutuna daxil edilib.

Qədim vaxtlardan Lahıc sakinləri dəmirçilik və qalayçılıq sənəti və toxuculuqla məşğul olublar. XIX əsrin ortalarında Lahıcda 200-dən çox sənətkarlıq emalatxanası olub. O vaxtdan, xüsusilə misgərlik sənətinin sirri nəsildən-nəslə ötürülərək bu gün də yaşadılır. Bu gün Lahıca gələn hər kəs - istər yerli, istərsə də xarici turistlər sexlərdə misgərlərin hazırladıqları nümunələrə heyranlıqla tamaşa edirlər, çox vaxt da onları həvəslə alırlar. Təsadüfi deyil ki, bu il, xüsusilə yay aylarında Lahıca gələn turistlərin sayı artıb və 78 min nəfərdən çox olub.

# İmişlidə sənaye məhsulu istehsalı 18,8 faiz artıb

2022-ci ilin yanvar-iyul aylarında İmişli rayonunda fəaliyyət göstərən sənaye müəssisələrində faktiki qiymətlərlə 249 milyon 563,7 min manatlıq məhsul istehsal olunub. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 39 milyon 507,2 min manat və ya 18,8 faiz çoxdur.

İmişli Rayon Statistika İdarəsindən verilən məlumata görə, istehsal edilən sənaye məhsulunun 4 faizi dövlət, 96 faizi qeyri-dövlət sektorunun payına düşüb. İstehsal olunan sənaye məhsulunun 5 milyon 323,4 min manatı və ya 2,1 faizi mədənçıxarma sənayesi, 233 milyon 798,5 min manatı və ya 93,6 faizi emal sənayesi, 9 milyon 918 min manatı və ya 4 faizi elektrik enerjisi, qazın bölüşdürülməsi və təchizatı sənayesi, 523,8 min manatı və ya 0,3 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sənayesinin payına düşür.

Bu ilin yanvar-iyul aylarında rayonda 19 milyon 56,7 min manatlıq sənaye məhsulu ixrac olunub.






# "Kənd boğçası" yarmarkası keçirilib

Zaqatala rayonunda Azərbaycan hökuməti tərəfindən maliyyələşdirilən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) - Azərbaycan Tərəfdaşlıq Proqramına daxil olan və Avropa İttifaqı (Aİ) tərəfindən maliyyələşdirilən layihələrin iştirakı ilə kənd təsərrüfatı məhsullarının yarmarkası keçirilib.

Yarmarkada FAO - Azərbaycan Tərəfdaşlıq Proqramının üç layihəsi - "Qadınların iqtisadi səlahiyyətlərinin artırılması, gənclərin aqrar məşğulluğunun artırılması", "Qoyunçuluğun davamlı inkişafı və ərzaq məhsullarının istehsalı üzrə dəyər zəncirinin yaradılması" layihələri iştirak edib. Tədbirə eləcə də Aİ-nin maliyyə dəstəyi və FAO-nun təşkilatçılığı ilə həyata keçirilən "Azərbaycanın şimal-qərb regionunda davamlı və inklüziv yerli aqro-ərzaq sistemlərinin inkişafı" layihəsi də daxil idi.

Zaqatala Rayon Mədəniyyət Mərkəzinin həyətində təşkil olunan sərgi-yarmarkada həmin layihələrdən yararlanan kiçik fermer təsərrüfatlarının, sahibkarlıq müəssisələrinin istehsal etdikləri məhsullar təqdim olunub.

Tədbirin açılış mərasimində Zaqatala Rayon İcra Hakimiyyəti başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri İlkin Şəfizadə çıxış edərək, yarmarkanın işinə uğurlar arzulayıb.

Kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova çıxışında qeyd edib ki, aqrar sektorun dayanıqlılığının təmin olunması və ərzaq təhlükəsizliyinin qorunması ölkəmizin sosial-iqtisadi siyasətinin əsas hədəflərindən biridir. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin 2015-ci il sentyabrın 30-da təsdiq etdiyi "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı arasında FAO - Azərbaycan Tərəfdaşlıq Proqramı haqqında (FATP) Saziş" çərçivəsində həyata keçirilən layihələr ölkəmiz üçün çox əhəmiyyətlidir. Saziş çərçivəsində ərzaq təhlükəsizliyinin qorunması, kənd yerlərinin inkişafı, əhalinin gəlirlərinin yüksəldilməsi, müxtəlif əhali qruplarının, gənclərin və qadınların aqrar məşğulluğunun artırılması, informasiya-məsləhət xidmətinin təşkili sahəsində əhəmiyyətli işlər görülüb. Nazir müavini bildirib ki, bu yarmarkanı görülən işlərin və nəticələrin qiymətləndirilməsi kimi də dəyərləndirmək olar. Belə yarmarkalar benefisiarlar arasında əlaqələrin qurulmasında və istehsal olunan məhsulların bazara çıxarılmasında xüsusi əhəmiyyət kəsb edir.

Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Peter Mixalko çıxışında bildirib ki, Aİ Azərbaycanın etibarlı tərəfdaşı olaraq qalır. Azərbaycanın Avropa ölkələrinə ixrac etdiyi məhsulların sayı ildən-ilə çoxalır. Sevindirici haldır ki, Zaqatalada yetişdirilən fındıq artıq Avropa bazarlarında da yaxşı tanınır. Zaqatala Avropanın kənd təsərrüfatı xəritəsində öz yerini tutur.

Tədbirdə həmçinin BMT-nin rezident - əlaqələndiricisi Vladanka Andreyeva, FAO Azərbaycan ofisinin rəhbəri Mələk Çakmak, proqram rəhbərləri, layihə menecerləri çıxış ediblər. Bildirilib ki, fermer yarmarkasının məqsədi yerli qida və kənd təsərrüfatı məhsullarını təqdim edərək potensial alıcı və istehlakçıları həmin məhsullara cəlb etməkdir. Yarmarkanın təşkili bölgəyə məxsus məhsulların və adət-ənənələrin təbliğinə töhfə verərək, regionun dayanıqlı inkişafına dəstək olacaq. Kənd əhalisinin gəlirlərini və dolanışıq vəziyyətini yaxşılaşdırmaq və dəyər zənciri yanaşması ilə kiçik sahibkarlıq müəssisələrinin dəstəklənməsi yarmarkanın əsas hədəflərindən biridir.

Vurğulanıb ki, yarmarkada iştirak edən hər bir fermer qida zəncirində təhlükəsiz qida və qida məhsullarının itkisinin, israfının azaldılmasında da xüsusi yer tutur. Həmçinin diqqətə çatdırılıb ki, FAO-nun araşdırmalarına əsasən, sahəsi 2 hektardan az olan kiçik torpaq sahələrində işləyən fermerlər dünya üzrə qida istehlakının üçdəbirindən çoxunu istehsal edir.

Sonra Şəki-Zaqatala regionunda icra edilən və FAO - Azərbaycan Tərəfdaşlıq Proqramı (FAPP) və Aİ tərəfindən maliyyələşdirilən layihələrin təqdimatı olub.

# Nadir yerli üzüm sortlarının genetik əlamətləri öyrənilir

Kənd Təsərrüfatı Nazirliyinin Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun (ÜŞETİ) Ampeloqrafik tədqiqatçılar qrupu tərəfindən Abşeron Təcrübə Təsərrüfatında əkilib becərilən üzüm sortlarının təyin edilməsi və sort təmizliyinin müəyyən olunması məqsədilə tədqiqat işləri davam etdirilir.

Nadir yerli üzüm sortlarının ampelodeskriptor, enokarpoloji və fenotipik əlamətləri müasir laborator üsullarla və OIV protokollarına uyğun öyrənilir. Yerli üzüm sortlarının ampeloqrafik və deskriptor əlamətləri təyin edilib, rəqəmsal təsvir olunduqdan sonra onlar məlumat bazasına daxil ediləcək. Qeyd edək ki, ampeloqrafik protokollara görə, sortun təyin edilməsində salxım və gilələrin uvaloji göstəriciləri mühüm rol oynayır.

Tədqiqat obyekti olaraq institutun Fiziki-kimyəvi analizlər laboratoriyasında Azərbaycanın qədim və nadir texniki üzüm sortlarından biri olan "Ağ Xərci" sortu tədqiq olunub. Bu sortun digər adı "Pişikgöz"dür. Sort şərq texniki üzüm sortları (convar orientalis subconivar caspica Negr.) yarımqrupuna mənsubdur. Yarpaqları orta ölçüdə (uzunluğu 12-16 sm, eni 11-15 sm), dəyirmi formada olub, 5 dilimlidir. Ayanın üst səthi tünd yaşıl rəngdə, parlaq, hamar, tək-tək hallarda isə zəif qabarıqlıdır. Yuxarı kəsikləri dərin, açıq olub, tərəfləri paralel olan formadan liraşəkilli formaya qədər təsadüf olunur. Çiçəyi ikicinslidir. Salxımları orta və ya iri ölçüdə (uzunluğu 14-20 sm, eni 9-18 sm), enli-konusşəkilli formada olub, bəzi salxımlarda isə bir, yaxud iki pəncə (qanad) inkişaf edir. Orta sıxlıqda, sıx, yaxud çox sıxdır. Giləleri orta ölçüdə (uzunluğu 14-20 mm, eni 13-19 mm), dəyirmi formada, ağımtıl-sarı rəngli və simmetrikdir. Qabığı orta qalınlıqda olub, üzəri seyrək mum təbəqəsi ilə örtülmüşdür. Ləti şirəlidir. Giləsində 1-4 toxum vardır. Sort gecyetişəndir. Vegetasiya müddəti 150-160 gün arasında dəyişir. Çiçəkləri orta dərəcədə tökülür, giləsi aşağı miqdarda noxudlaşır. Sortun tənəkləri güclü boyatandır (285 sm). Zoğları yaxşı yetişir (83,5 faiz). Çiçəkləri aşağı, yaxud orta miqdarda tökülür. Salxımlarında noxudlaşmış gilələr az inkişaf edir. Sort Abşeron şəraitində oidium və antraknoz xəstəliyinə tolerantlıq (3-3,5 bal), boz çürümə xəstəliyinə isə davamlılıq (2-2,5 bal) nümayiş etdirir. Yüksək, yaxud çox yüksək məhsuldar sortdur. Barlı zoğların miqdarı 66,5 faiz; bar əmsalı 0,79; məhsuldarlıq əmsalı 1,22; salxımın sayı 38 ədəd; salxımların orta kütləsi 258 qr; tənəyin məhsuldarlığı 9,8 kq; hektardan məhsuldarlıq 217,8 s/ha təşkil edir.

Sort mexaniki xüsusiyyətlərinə görə tipik texniki istiqamətlidir.





# Mədəniyyət





**Unudulmazlar**

**Həmişə sevilən müğənni Gülağa Məmmədovun adı çəkiləndə sovet dönəmində rayonda, kənd klubunda verdiyi konsertlər, salondakı qələbəlik gözlərim önündə canlanır. Oxuduğu mahnılardan sonra sürəkli alqışlar uzun müddət dayanmaq bilmirdi. Mahnını təkrar dinləmək istəyən kənd camaatına dəstək olaraq kiçikyaşlılar da əl çalmaqdan yorulmurdular. Aradan illər ötsə də, insanlar indi də televiziya və ya radioda "Oxuyur Gülağa Məmmədov" eşidəndə dərhal unudulmaz müğənniyə məmnuniyyətlə qulaq asmağa köklənir.**



# Ecazkar səs sahibi

## Onu Üzeyir bəy Hacıbəyli kəşf edib

İctimai rəydə böyük ehtiramla xatırlanan sevimli müğənni Gülağa Məmmədov 97 il bundan əvvəl (1925-ci il) qızmar yay günlərinin birində - iyunun 28-də Lənkəranın Kiçik Bazar məhəlləsində adi kəndli ailəsində dünyaya göz açıb. Atası çəkməçi, anası evdar qadın olub. Atası Allahverdi kişinin cüzi qazancı ilə dolanan 7 uşaqlı ailə bir müddət sonra Bakıya köçür. Bu köç balaca Gülağanın taleyində böyük dönüşə səbəb olur. Belə ki, uşaqlıqdan musiqiyə böyük marağı olan 12 yaşlı Gülağa hərdən qonşu uşaqları başına yığıb, onlara mahnılar oxuyurdu. Günlərin birində təsadüfən onların küçələrindən keçən bəstəkar Üzeyir bəy Hacıbəyli məlahətli uşaq səsi eşidib ayaq saxlayır. Üzeyir bəy Moskvada keçiriləcək Azərbaycan mədəniyyəti və incəsənəti ongünlüyündə Koroğlunun ariyasını ifa etmək üçün elə bu yaşda istedadlı uşaq axtarırmış. Gülağanın səsinə valeh olan bəstəkar həyətə keçir, Gülağa ilə tanış olur. Onu Opera teatrında keçiriləcək müsabiqəyə dəvət edir. Azyaşlı Gülağa Üzeyir bəy Hacıbəyli, Bülbül, Səid Rüstəmov kimi görkəmli sənətkarların münsiflər heyətinin tərkibində olduğu müsabiqədə iştirak edir və onun səsi bəyənilir.

## Xeyirxahlığın gətirdiyi uğur

Bununla da Gülağa Məmmədov 1938-ci ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti ongünlüyünün iştirakçısı olur. "Bolşoy Teatr"ın səhnəsində Maestro Niyazinin müşayiəti ilə ifa etdiyi Koroğlunun "Səni gördüm, aşiq oldum" ariyası böyük alqışlarla qarşılanır. Moskvadan gümüş medal və fəxri fərmanla qayıdan Gülağanın ailə-yaşam vəziyyəti ilə Ü.Hacıbəyli maraqlanır. O, Gülağanı anası ilə birgə yanına dəvət edir, qısa tanışlıqdan sonra tapşırır ki, ev seçmək üçün xoşlarına gələn ünvanı göstərsinlər. Mirzəağa Əliyev küçəsində yerləşən ikiotaqlı həyət evini bəyənirlər. Üzeyir bəy Hacıbəylinin dəstəyi ilə Gülağa Məmmədovun ailəsinə ikiotaqlı mənzil verilir və aya 250 manat təqaüd ayrılır. 15 yaşında Səid Rüstəmovun ansamblına qəbul edilir. Sonra konservatoriyada təhsil alır. O, 20 yaşından Musiqili Komediya Teatrında çalışmağa başlayır. "Arşın mal alan", "Beşmanatlıq gəlin" və digər tamaşalarda baş rolları oynayır. Lakin bir neçə ildən sonra teatrdan ayrılır. Konservatoriyada oxuduğu illərdə Gülağa vokal dərsini Bülbüldən, muğamın sirlərini isə Sarabskidən öyrənir. Oxuduğu mahnıların çoxu isə Səid Rüstəmova məxsus idi. Səid Rüstəmov mahnılarının əksəriyyətini xüsusi olaraq Gülağa üçün yazırdı. Tofiq Quliyevin də, Cahangir Cahangirovun da əsərlərini ilk səsləndirən Gülağa Məmmədov olub. "Nəsimi" filmində Nəsimi səhrada dərvişlərin əhatəsində gəzərkən oxunan "İstəmə" qəzəlini də Gülağa Məmmədov ifa edib.

## Y.Zurufçu: "Məni Azərbaycanda tanıdan Gülağa Məmmədov olub"

Böyük Vətən müharibəsi illərində yeniyetmə Gülağa Şövkət Ələkbərova ilə birgə döyüşçülərin qarşısında konsert proqramlarıyla çıxış edir. Cəbhədə başlarına od-alov yağa-yağa mahnı oxuyub döyüşçüləri ruhlandırıblar. Müharibə bitdikdən sonra - 1946-cı ildə Gülağa Məmmədov bir könüldən min könülə aşiq olduğu qonşu qızı Aliyə xanımla ailə qurur. Uzun illər cütlük övlad həsrəti ilə yaşayır. Hətta həkimlər onlara Aliyənin uşaq dünyaya gətirə bilməyəcəyini deyirlər. Xoşbəxtlikdən evləndikləri vaxtdan on il sonra taleləri üzlərinə gülür. Onların yeganə övladları - Gülarə dünyaya gəlir.

Gülarə xanım atasıyla bağlı xatirələrində deyir: "Atam sürpriz etməyi xoşlayardı. Bir dəfə heç nə demədən evdən anamın şəklini, pasportunu götürüb, bir müddət sonra "Hazırlaş, xaricə gedirik" deyə aldığı putyovkanı ona uzadıb. Onlar birlikdə, demək olar, dünyanın az qala yarısını gəziblər. Anam özü deyərdi ki, Ərəbistan, İtaliya, Almaniya, hətta Afrikayadək gedib çıxıblar. Müğənnilik sənəti atama çoxlu dostlar qazandırmışdır. Şövkət Ələkbərova ilə səhnəyə gəldikləri ilk gündən sənət dostu kimi çox yaxın idilər".

1989-cu ildə Gülağa Məmmədov həyat yoldaşı Aliyə xanımla Almaniyada olarkən orada əslən Cənubi Azərbaycandan olan vokalist və müğənni Yaqub Zurufçu ilə görüşür. Onun "Ayrılıq" mahnısına çəkdiyi klipi görüb heyrətə gəlir. Görüş zamanı Yaqub Zurufçu Gülağa Məmmədovdan xahiş edir ki, Bakıya qayıdanda Azərbaycana gəlmək üçün ona dəvətnamə göndərsin. O vaxtlar Azərbaycan televiziyasında "Ayrılıq" verilişi gedirdi. Müğənni Almaniyadan qayıdandan sonra kaseti studiyaya apararaq həmin mahnının yayımlanmasına nail olur. Milli-mənəvi oyanışa xidmət edən bu mahnı tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanır. Bundan sonra Gülağa Məmmədov Yaqub Zurufçuya verdiyi sözü yerinə yetirib ona dəvətnamə göndərir. Yaqub Zurufçu ailəsi ilə birlikdə Bakıya gəlib bir ay burda qalır. Bu müddətdə Gülağa Məmmədov ona ustad dəstəyi göstərir, öz mahnılarını öyrədir. Şövkət xanım, Gülağa Məmmədov və Yaqub Zurufçu birlikdə indiki Heydər Əliyev adına Respublika Sarayında konsert verirlər. Ona görə də Yaqub Zurufçu həmişə çıxışlarında deyirdi: "Məni Azərbaycana tanıdan Gülağa Məmmədov olub".

## Çoxşaxəli yaradıcılıq uğurları və...

Gülağa Məmmədov şirin, lakonik səsi ilə 600-dən artıq xalq və bəstəkar mahnılarına nəfəs verib. 15-dən çox bədii filmdə, teatr tamaşalarında xarakterik musiqi nömrələri ifa edib. Respublikada fəaliyyət göstərən əksər xalq çalğı alətləri ansamblları ilə, simfonik orkestrlərlə birgə çıxışlar edib. Müslüm Maqomayev adına Dövlət Filarmoniyasının mahnı və rəqs ansamblında, Dövlət Musiqili Komediya Teatrında işləyib. 1952-ci ildən ömrünün sonuna qədər Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin (hazırda Səid Rüstəmov adına) xalq çalğı alətləri ansamblının solisti olub. "Ay qız", "Ana Kür", "Oxu, gözəl", "Şeir deyilmi", "Mənim qızım" kimi mahnıların hər birini özünəməxsus tərzdə ifa edib. Şair Rəfiq Zəkanın sözlərinə yazdığı "Ana Kürüm" mahnısı lentə alınanda unudulmaz bəstəkar Cahangir Cahangirov bərk kövrəlir, Gülağaya tərəf baxıb deyir: "Ay Gülağa, sən avazınla, şirin səsinlə məcrasına sığmayan dəli Kür çayını ovsuna saldın". Həmin mahnı məşhur "Dəli Kür" bədii filmində səslənir.

Gülağa Məmmədov musiqi yaradıcılığında özünün yanaşma tərzi, daxili tələb və istəkləri ilə fərqlənib, bu sənətin həmişə təəssübkeşi kimi tanınıb. G.Məmmədovun yaxşı muğamat oxumağı da olub. Ancaq efirdə muğam oxumayıb. Bu barədə ona sual verəndə "oxuyacağam" deyə cavab verərmiş.

1942-ci ildən Azərbaycan radiosunda Bədii Şuranın üzvü olub. Şit, bayağı mahnı olanda öz fikrini qəti şəkildə bildirərmiş: "Efirə buraxmaq olmaz!" Şuranın digər üzvləri onun fikrilə razılaşırdılar. Lakin az vaxtdan sonra həmin mahnını efirdən eşidəndə etirazını bildirərmiş. Bu cür hallar tez-tez təkrarlandığından o, bu vəzifədən könüllü olaraq imtina etmişdir.

Milyonların sevimlisi olan Gülağa Məmmədov respublikamızın ictimai-mədəni həyatında çıxışlarına görə dəfələrlə Mədəniyyət Nazirliyi və aidiyyəti qurumlar tərəfindən fəxri fərman və təşəkkürlər almış, Azərbaycan musiqi sənətinin inkişafında xidmətlərinə görə 1959-cu ildə Əməkdar artist, 1982-ci ildə isə Xalq artisti fəxri adlarına layiq görülmüşdür.

Vəfatından 28 ildən artıq vaxt keçməsinə baxmayaraq, Azərbaycanın musiqi incəsənəti tarixində və insanların qəlbində əbədiyaşarlıq qazanmış Gülağa Məmmədov ecazkar səsi, unudulmaz mahnıları ilə daim ehtiramla, məhəbbətlə xatırlanır.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

**Teatr xadimləri**

# Onun böyük sənət dünyası

**Tamaşaçılar onu bir-birindən maraqlı, həzin, qayğılı rollarda görüb tanıdılar. Bu dünyanı tərk etdiyi gündən illər ötsə də, bir zamanlar lent yazılarına köçürülmüş, sevə-sevə ifa etdiyi o rollar Xalq artisti Barat Şəkinskayanı yaddaşlarda saxlayır.**



Bəlkə də səhnə, ekran ömrü verdiyi obrazlardan daha maraqlı, daha keşməkeşli həyat yolu keçib Barat Şəkinskaya. O, qədim və gözəl Şuşada xanzadə olaraq dünyaya göz açıb. Ata babası, çar zabiti, polkovnik Süleyman xan, Şəki xanı Səlim xanın oğlu, sonuncu Şəki xanı Hüseyn xanın qardaşı olub. Həm də Qarabağ xanı İbrahimxəlil xanın nəvəsi olan atası Həbib xan çar Rusiyası zamanında Zəngəzur qəzasının Dığ nahiyəsində polis pristavı vəzifəsində çalışıb. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Zəngəzur qəzasının rəisi işləyib. Zəngəzurun Akara, Muradxanlı, Novruzlar kəndləri Həbib xana məxsus olub.

Barat Şəkinskayanın ana tərəfi də əsilzadə idi. Anası Ağca xanım bəy qızı olub. Ana nənəsi Gövhər xanım Əbdürrəhim bəy Haqverdiyevin əmisi qızı idi.

Barat xanım ilk təhsilini Şuşada alıb. Birinci dəfə səhnəyə də bu şəhərdə çıxıb. 1920-ci ildə Şuşada göstərilən "Şəbih" tamaşasında Səkinənin rolunu ifa edib.

1920-ci il 28 aprel işğalı ilə Barat Şəkinskayanın qayğısız günləri də bitib. Azərbaycanın bir çox qabaqcıl, vətənsevər övladı kimi, Həbib xan da evindən didərgin düşüb. Sovet hökumətinin təqiblərindən qaçmaq məcburiyyətində qalan Həbib xan iki kiçik qızını və hamilə həyat yoldaşını qayınanasına tapşırıb. Fürsət tapan kimi onları da öz yanına aparmaq ümidi ilə vətənini tərk edib. Yalandan xəbər yayıblar ki, Həbib xan qətlə yetirilib. Həbib xanın adamları fikirləri yayındırıb onun ailəsini Arazdan İrana keçirməli idi. Amma bu gediş baş tutmayıb.

Anası bu dəfə Gəncədə yaşayan bacısı Rəxşəndə xanıma xəbər göndərib. Rəxşəndə xanım öz adamlarını yollayıb onları Gəncəyə apartdırıb. 1923-cü ildən Barat xanım anası, bacı-qardaşı ilə birgə bu şəhərdə yaşamağa başlayıb. Həmin il sentyabrın 1-də Gəncədəki 2 saylı birinci dərəcəli qız məktəbinə gedib. 1927-ci ildə Gəncədə Pedaqoji məktəbə daxil olub. Tələbəlik illərində məktəbin və şəhərin müxtəlif dram dərnəklərində həvəskar aktrisa kimi səhnəyə çıxıb. 1929-cu il sentyabrın 18-də Gəncə Həmkarlar İttifaqının "Fəhlə klubu"nda aktrisa kimi işə başlayıb. Həmin vaxtlar "Fəhlə klubu"nun direktoru, Gəncədə tanınmış həvəskar aktyor və rejissor Mir İbrahim Həmzəyev ona dəlicəsinə aşiq olub. Barat xanım onu sevsə də, anası qızının artistlə ailə qurmasına razı olmayıb. On altı yaşlı Barat xanım onun sözünə baxmayıb. 1931-ci ilin iyulunda Mir İbrahim Həmzəyevlə ailə qurub. 1932-ci il mayın 3-də onların övladı dünyaya gəlib. Körpəyə "Od gəlini"nin qəhrəmanı Solmazın şərəfinə bu adı veriblər.

Bu evlilik iki il sonra bitib. Barat xanım Mir İbrahim Həmzəyevin xəyanətini bağışlamayıb. Onunla qarşılaşmamaq üçün 1935-ci ildə işdən çıxıb. Qızı Solmazı anasına tapşırıb, tibb təhsili almaq üçün Bakıya yollanıb.

Bakıda bir gün vaxtilə eyni dərnəkdə çalışdığı, Akademik Milli Dram Teatrının rejissoru işləyən Adil İsgəndərovla qarşılaşıb. O, Barat xanımı özünün rejissor kimi ilk debütü olan "Polad qartal" tamaşasında uşaq rolunu oynamağa dəvət edib. Barat Şəkinskaya Şəfiqə rolunu oynayıb. 1935-ci il sentyabrın 1-də Akademik Milli Dram Teatrının (ovaxtkı Məşədi Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrı) aktyor truppasına qəbul olunub. Tezliklə aktrisa kimi məşhurlaşıb.

1936-cı il avqustun 8-də teatrda rejissor işləyən Şəmsi Bədəlbəyli ilə ailə qurub. Bu evlilik yeddi il davam edib.

Səhnənin şöhrətləndirdiyi, Əməkdar artist adına layiq görülmüş Barat Şəkinskaya Gəncəyə dönüb. Gəncə Dövlət Dram Teatrında ehtiramla qarşılanıb. Teatrın baş rejissoru Mehdi Məmmədovun ona qayğısı isə vaxt keçdikcə sevgiyə dönüb. 1944-cü il noyabrın 16-da Barat xanım özündən üç yaş kiçik Mehdi Məmmədovla ailə həyatı qurub.

Ancaq Bakıda yeri görünüb. Gəncədən gələn aktrisanın gözə dəyməməsi Mircəfər Bağırovu da maraqlandırıb. Adil İsgəndərova Barat Şəkinskayanı "Azdrama"ya geri qaytarmağı tapşırıb. Adil İsgəndərov zəng vurub Barat xanımla danışıb. Aktrisa Bakıya dönməsinin artıq mümkünsüzlüyünü, Gəncədə ailə qurduğunu, həyat yoldaşının isə teatrın baş rejissoru olduğunu söyləyib. Adil İsgəndərov bu barədə Mircəfər Bağırova məlumat verib. Mircəfər Bağırov deyib: "Ərini də götürsün, gəlsin bura".

Artıq yalnız Gəncədə deyil, Bakıda da istedadlı rejissor kimi tanınan Mehdi Məmmədovla Barat Şəkinskaya 1944-cü ilin dekabrında Bakıya köçərək teatrda işə başlayıblar. 1946-cı il mayın 29-da oğulları Elçin dünyaya gəlib.

Aktrisanın səhnə yaradıcılığı çox zəngin olub. O, "Göy quş" (Tiltil), "Kral Lir" (Kardeliya), "Romeo va Cülyetta" (Cülyetta), "Otello" (Dezdemona), "On ikinci gecə" (Viola), "Polad qartal" (Şəfiqə), "Məkr və məhəbbət" (Luiza), "Mehmanxana sahibəsi" (Mirandalina), "Rəqs müəllimi" (Florela), "Günahsız müqəssirlər" (Kruçinina) və başqa tamaşalarda əsas rolların ifaçısı olub.

Barat Şəkinskaya 1940-cı il mayın 4-də, iyirmi dörd yaşında Əməkdar artist, 1949-cu il iyulun 21-də isə Xalq artisti fəxri adlarına layiq görülüb. O, çox gənc yaşlarından bağlandığı sənətə hər zaman böyük ehtiramla yanaşıb. Yaşlandığını hiss etdiyi vaxt səhnədən uzaqlaşmaq qərarına gəlib. Görkəmli sənətkar 1999-cu il yanvarın 14-də səksən dörd yaşında dünyasını dəyişib.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

**Yaşayan tariximiz**

# Dəyərlərdən gələn işıq - Şəki Xan Sarayı

**Azərbaycanın Orta əsr memarlığının nadir abidələrindən biridir Şəki Xan Sarayı. XVIII əsrdə inşa edilib. Lakin təkcə o dövr saray memarlığının Qafqazda ən gözəl nümunələrindən, İslam Şərqinin memarlıq incilərindən biri sayılmır, dünya əhəmiyyətli tarix və memarlıq abidəsidir...**

## Haqqında tarixi mənbələrdə və rəvayətlərdə bəhs olunan saray

Şəhərin şimal-şərq hissəsində, qala divarları ilə əhatələnən ərazisində yerləşən bu sarayın bir sıra mənbələrdə Azərbaycanda ilk müstəqil xanlığın əsasını qoyan Hacı Çələbi xanın nəvəsi Məhəmmədhüseyn xanın dövründə tikildiyi qeyd edilib. Məhəmmədhüseyn xan "Müştaq" təxəllüsü ilə şeirlər yazıb. Ona görə də bu sarayın "Müştaq imarəti" yazıldığı mənbələr də var.

Bəzən "Zalım xan sarayı" adlandırılması barədə rəvayətlər də mövcuddur. Rəvayətə görə, Şəki xanı dövrün tanınmış memarlarından birinə bənzərsiz saray inşa etməyi tapşırıb. Tikinti başa çatıb. Xan memardan soruşub ki, bundan yaxşı saray ucalda bilərsənmi? Usta "Əgər daha çox pul versələr, bundan möhtəşəmini tikərəm" deməsi ilə sonunu gətirib. Öz sarayından daha əzəmətlisini görmək istəməyən xan elə qəzəblənib ki, memarı edam etdirib. Bu səbəbdən Şəki Xan Sarayına "memarını edam etdirən saray" da deyilib. Bu rəvayətin sonluğunu fərqli söyləyənlər də var. Deyirlər ki, xan memarı öldürməyib, əllərini kəsdirib.

Tarixdən sarayı inşa etdirən Məhəmmədhüseyn xanın da həyatının faciə ilə bitdiyi məlumdur. 1759-cu ildən hakimiyyətdə olan Məhəmmədhüseyn xanı taxtdan salmaq, xanlığı ələ keçirmək üçün əmisi Hacı Abdulqadir 1780-ci ilin avqustunda altmış nəfərdən ibarət dəstəsi ilə gecə gəlib Nuxa dağlarında gizlənib. Günortadan sonra qəflətən basqın edib və qalaya daxil olub. Qurğuşunlu otağın qapılarını içəridən bağlayan oğlu Fətəli xanla birgə basqınçılara müqavimət göstərən Məhəmmədhüseyn xan ağır yaralanıb. Qapını sındıraraq onu ələ keçiriblər. Xan bir həftə saxlanılıb. Hansısa müqaviləyə imza atdıqdan sonra onu boğub öldürüblər. Məhəmmədhüseyn xan Müştaqın şair dostu Molla Vəli Vidadi "Müsibətnamə" adlı tarixi mənzuməsini onun faciəli ölümünə həsr edib.

Məhəmmədhüseyn xan iyirmi bir illik hakimiyyəti dövründə babası Hacı Çələbi xanın yolu ilə gedib. Şəkidə bir çox saray, məscid, mədrəsə tikdirib. Şair qəlbli xan qələmə aldığı poetik əsərləri kimi, inşa etdirdiyi tikililərin də hər daşına, şəbəkələrinin ölçüsünə, rənginə, naxışına diqqət yetirib. Aradan əsrlər ötsə də, onun tikdirdiyi Xan sarayı bu gün də görənləri heyran edir.

## Aleksandr Düma: "Saray heyranedici tikilidir"

Tarixi mənbələrdə Şəki Xan Sarayının 1760-1765-ci illərdə inşa olunduğu qeyd edilib. Memarı şirazlı Hacı Zeynalabdindir. Orijinallığı ilə seçilən sarayın tikintisi zamanı mismardan, yaxud yapışdırıcıdan istifadə olunmayıb. 2 mərtəbəli bina 6 otaqdan, 4 dəhlizdən, 2 güzgülü eyvandan ibarətdir. Birinci mərtəbənin zalından rəsmi qəbullar üçün istifadə olunub.




Qalanın 1853-cü ildə tərtib edilmiş planına əsasən, orada xan ailəsi üçün nəzərdə tutulmuş müxtəlif binalar yerləşib. Qalada saray kompleksindən başqa xəzinə, baraklar, həbsxana və 1828-ci ildə xan məscidinə çevrilmiş ortodoks kilsəsi olub. Həm AMEA Əlyazmalar İnstitutu tərəfindən 1979-cu ildə nəşr edilən "Maddeyi-tarix" adlı əlyazmasına, həm də XIX əsr rusiyalı müxbir Nikolay Bersenoun məlumatına görə, xanın yaşadığı saray binası həm də divanxana, yəni şəhər məhkəməsi binası kimi fəaliyyət göstərib. Bəzi mənbələrdə saray xanın yay iqamətgahı kimi qeyd edilib.

Bütövlükdə saray kompleksinin təsviri XIX əsrin ikinci yarısında Qafqaz Komandanı Aleksey Petroviç Yermolovun göstərişi ilə general-mayor Fyodr Axverdov və dövlət şurasının müşaviri Mogilevski tərəfindən hazırlanmış "Şəki əyalətinin təsviri"ndə (Tiflis, 1866) verilib. Hesabata əsaslanaraq kompleksə daxil olmuş bir çox tikililərin ilkin təyinatını müəyyənləşdirmək mümkün olub.

Aleksandr Düma, Aleksandr Korniloviç, Andrey Fadeyev, Arnold Zisserman, Lev Tolstoy, Nikolay Rayevskiy, İlya Berezin, Elize Reklü və başqaları saray haqqında məlumatlar veriblər.

1834-cü il avqustun əvvəllərində Şəkidə olmuş dekabrist A.Korniloviç qardaşına yazdığı məktubda sarayı belə təsvir edib: "Nuxada, əsas şəhərdəki qalada onların indi iş yerinə çevrilmiş sarayını gördüm. Bir neçə pilləkən və hündür portik bağ salınmış geniş dördbucaqlı həyətə aparır: qeyri-adi simmetriya ilə düzülmüş on altı italyan qovağı bağı dörd xiyabana bölür. Bağın kənarlarında saray əyanları, xanın həyat yoldaşları, onların qulluqçuları və digər qulluqçuların yaşadığı fligel binalar yerləşir; onların arxasında bir yarım insan boyu hündürlüyündə terras, həmin terrasda iki böyük çinarla əhatə olunmuş üç fəvvarəli hovuz, hovuzun arxasında isə saray binası yerləşir. Saray tərk edilmiş olsa da, daxildən keçmişin saxlanılmış möhtəşəmliyi ilə görənləri valeh edir".

1846-cı ildən Zaqafqaziyada xidmət edən Andrey Fadeyev xatirələrində şəhərlə bərabər, bu sarayın xarici görünüşünü, daxili bölgüsünü, naxışlarını təsvir edib. 1849-cu ildə yazıçı A.Zisserman Şəki (o zamanlar Nuxa adlandırılıb) şəhərinə səfər edib. O da şəhər barədə danışarkən saraydan bəhs edib. Söyüdlərlə əhatələnmiş mərmər fəvvarələr, rəngarəng şüşələr, otaq sobaları üzərindəki yapma bəzək, qapı və pəncərələrdəki taxta oymaların xan dəbdəbəsini və sarayın keçmiş möhtəşəmliyini xatırlatdığını bildirib.

1858-ci illərin sonlarında Şəkidə olmuş Aleksandr Düma saray haqqında məlumatlar verib: "Bu tipdə olan bütün binalar kimi, Xan sarayı da şəhərin ən yüksək yerində inşa edilib. Yeni memarlığa xas saray 1792-ci ildə Məhəmmədhəsən xan tərəfindən inşa etdirilmişdir... Saray heyranedici tikilidir. ...Burada yaşamış böyük knyazların gəlişi şərəfinə sarayın interyerləri köhnə təsvirlər əsasında bərpa edilmişdir. Düzdür, bütün bina yox, yalnız onun aşağı mərtəbələri bərpa olunmuşdur... Hələlik, qoy Tanrı Nuxadakı heyranedici sarayı vandallardan qorusun".

Hərb tarixçisi Vasili Potto XIX əsrin sonlarında yazdığı "Qafqaz müharibəsi" adlı kitabında Şəki xanlığının paytaxtının ruslar tərəfindən işğalını təsvir edərkən Xan sarayından da qeydlərini edib.

Rusiya diyarşünası İ.L.Seqal 1797-ci ildə Məhəmmədhəsən xanın "o zaman üçün möhtəşəm olan Xan sarayı" inşa etdirdiyini, 32.000 çervona başa gələn saraya görə xan xəzinəsinin boşaldığını yazıb.

Şandor Rado sarayın 1760-cı ildə Hüseyn xanın göstərişi ilə tikildiyini, qısa müddət sonra yenidənqurma işləri aparıldığını qeyd edib.

XIX əsrin sonu, XX əsrin əvvəllərində nəşr olunmuş Brokhouz və Efronun ensiklopedik lüğətində saray və qala divarlarının eyni vaxtda - 1765-ci ildə inşa edildiyi göstərilib.

Britannika ensiklopediyasının 1890-cı il nəşrində qeyd edilir ki, qala divarları 1765-ci ildə, saray isə həmin tarixdən bir müddət sonra tikilib. Həmin il başqa bir məqaləsində isə sarayın 1797-ci ildə kor Məhəmmədhəsən xan tərəfindən inşa edildiyini yazıb.

Azərbaycan Sovet Ensiklopediyasında sarayın XVIII əsrin 60-cı illərində Hüseyn xan Müştaqın sifarişi ilə tikildiyi yazılıb. Memarlıq tarixçisi Mikayıl Hüseynovun sözlərinə görə, sarayın inşaat tarixi 1762-1797-ci illər arasındadır. M.A.Hüseynovun fikrincə, bu Xan sarayı "XVIII əsr sarayları üçün xarakterik olan parlaq xüsusiyyətləri əks etdirir".

Şəki xanlığının Rusiya imperiyasına birləşdirilməsindən sonra saray yerli idarənin tabeliyində olub və dəfələrlə təmir edilib. 1848-1851-ci illərdə Hüseyn xan Müştaqın nəvəsi, şair Kərim ağa Fateh tərəfindən burada bərpa işləri aparılıb.

Azərbaycan SSR dövründə saray muzey statusu alıb. 1921-ci il aprelin 25-də plenumda bu barədə qərar qəbul edilib. Şuşa və Şəkidəki xan saraylarının düzəldilməsinə 25 milyon rubl ayrılıb.

Ümumbirlik Memarlıq Akademiyası komissiyasının 13 mart 1939-cu ildə keçirilmiş iclasına memar Pyotr Baronovski tərəfindən bərpa layihəsinə baxışa əsaslanmış hesabat təqdim olunub.

1952-ci ildə respublikanın görkəmli memarı Niyazi Rzayevin rəhbərliyi altında Şəki xanları sarayının ilk dəfə ölçüləri götürülərək tədqiq edilib. Bərpa layihəsi tərtib edilib. Bərpa işləri 1967-ci ildə başa çatdırılıb və abidə əvvəlki görkəmini alıb. 2002-ci ildə "Mədəni irsin mühafizəsi" layihəsi çərçivəsində sarayda bərpa işlərinə başlanılıb.

Şəki qalasında ucaldılmış və bir neçə tikilidən ibarət olan saray kompleksindən dövrümüzə yalnız ikimərtəbəli saray binası çatıb. Dəfələrlə təmir və yenidənqurma işlərinin aparılması xarici görünüşünə ciddi təsir etməyib.

1968-ci ildə Şəkinin sarayda yerləşən Yuxarı-Baş adlı tarixi hissəsi tarix-memarlıq qoruğu elan olunub. 2001-ci il 24 oktyabrda Şəkinin tarixi hissəsi ilə birlikdə Xan sarayı da UNESCO-nun Ümumdünya İrs Siyahısına salınmağa namizəd göstərilib. 2019-cu ildən etibarən saray Şəkinin tarixi mərkəzi ilə birlikdə ümumdünya irsidir.

*Z.FƏRƏCOVA,*
*"Azərbaycan"*

Dünya olduğu kimi

# Dəryaların sirri

**Yer kürəsinin 75 faizini əhatə edən su gölləri, dənizləri, okeanları əmələ gətirir. Su təbiətdə eyni zamanda qar, buzlaq, aysberq, bulud, çən, şeh və atmosfer nəmi şəklində mövcuddur. Rəngsiz, dadsız və iysiz mayenin kütləcə 11,19 faizini hidrogen, 88,81 faizini isə oksigen təşkil edir.**

Suyun əmələ gətirdiyi dənizlər isə okeanların bir hissəsi olaraq onunla birbaşa və ya boğaz vasitəsilə əlaqələnirlər. Dənizlər yerləşdikləri ərazilərə görə, üç yerə bölünürlər ki, bunlar da daxili, kənar və adalararası dənizlərdir. Dəniz duzunun əsasını xlorid təşkil edir. Duzluluq temperaturdan, illik yağıntıdan, okean cərəyanlarından, ərazinin relyefindən, flora və faunadan, buxarlanmadan və günəşin düşmə bucağından asılı olaraq dəyişir. Ekvatorial enliklərdə yağıntı çox olsa da, temperatur yüksək olduğundan buxarlanma yüksək olur.

Dənizlər həmçinin ölçülərinə görə də fərqlənir. Dünyanın ən böyük dənizləri sırasında Aralıq dənizi, Berinq dənizi, Karib dənizi, Filippin dənizi yer alır.

Dünyanın ən böyük dənizi olan Filippin Böyük Zond Arxipelaqının şimal-şərqində, Sakit okeanda yerləşir. Dənizin sahəsi 5 milyon 726 min kvadratkilometrdir. Onun ən dərin yeri 11022 metr, orta dərinliyi isə 4108 metrdir.

Aralıq dənizi qərbdən Cəbəlüttariq boğazı və Atlantik okeanı ilə, cənub-şərqdən isə Misirdəki Süveyş kanalı və Qırmızı dənizlə birləşir. Təxminən 4 milyon kvadratkilometr ərazini əhatə edən dəniz özü də daxilində bir sıra dənizlərə bölünür. Bunlar Balear dənizi, Liquriya dənizi, Alboran, İon, Kipr, Egey, Livia, Adriatik dənizləridir.

Böyük dənizlərdən biri olan Berinq Sakit okeanın şimalında yerləşir. Berinq boğazı bu dənizi Çukot dənizi və Şimal Buzlu okeanıyla birləşdirir. Berinq dənizi sahilində yerləşən ölkələr isə Rusiya və ABŞ-dır. Dənizin sahəsi 2 milyon 315 min kvadratkilometr, uzunluğu isə 2400 kilometrdir.

Atlantik okeanına daxil olan Karib dənizi Qərb yarımkürəsində yerləşən tropik dənizdir. Sahəsi 2 milyon 754 min kvadratmetrdir. Cənubi Amerikanın sahilində yerləşən dənizin ən dərin yeri 7686 metrdir.

### *Sualtı muzeyi olan dəniz*



Məlumatlara görə, qədim insanlar dünyanın bəzi cəhətlərini müəyyən etmək üçün rənglərdən istifadə ediblər. Məsələn, cənub qırmızı, şimal qara rənglə işarələnirmiş. Buna görə cənubda yerləşən dənizi Qırmızı, şimala doğru uzanan dənizi isə Qara dəniz adlandırıblar.

Alimlər bildirirlər ki, Qırmızı dənizi sularını qırmızı-qəhvəyi rəngə boyayan yosunlara görə belə adlandırıblar. Tarixçilər və tədqiqatçılar isə hesab edirlər ki, Qırmızı dənizə bu adı qədim zamanlarda dənizçilər veriblər. Bu, dənizin sahilində yerləşən qırmızı qayalarla bağlıdır. Qırmızı qayaların rənginin dənizin sularında əks olunması insanları elə valeh edib ki, səyyahlar onu Qırmızı dəniz adlandırıblar. Digər məlumatlara görə, yalnız avropalılar onu Qırmızı dəniz adlandırırlar. İvrit dilində isə Qırmızı dəniz "Yam Suf" adlanır, bu da "qamışlıq" deməkdir. Tədqiqatlara görə, Qırmızı dənizin bəzi çökək yerlərində su öz rəngini və temperaturunu dəyişir və müsbət 61 dərəcəyədək yüksəlir. Suyun temperaturunun qalxması ilə əlaqədar burada duzluluq artaraq bir litr üçün 256 qram təşkil edir.

Qırmızı dənizin maraqlı cəhətlərindən biri də orada sualtı muzeyin olmasıdır. Burada "batmış gəmilər muzeyini" görmək mümkündür, amma bu muzeyə yalnız dalğıclar və dayverlər baş çəkə bilirlər. İkinci Dünya müharibəsi illərində almanlar tərəfindən partladılaraq batırılmış ingilis yük gəmisi "Tistleqorm" ("mavi qanqal") ən maraqlı eksponatlardan biri sayılır.

Qara dənizə gəlincə, ilk olaraq qədim yunanlar tərəfindən öyrənilən bu dənizdə səyahət edənlər güclü fırtınalarla rastlaşmış və dənizi "qonaqsevməz" mənasını verən "Aksinos Pontos" adlandırmışlar. Daha sonra cənuba doğru irəlilədikcə mülayim iqlimin üstünlük təşkil etdiyini görən yunanlar dənizi "qonaqsevməz" sözünün əksini bildirən "Evksinos Pontos" adlandırıblar. Lakin bugünümüzə qədər ona Qara dəniz deyilir. Bununla bağlı müxtəlif fikirlər mövcuddur. Mülahizələrə görə, dənizin adını türklər qoyduğu üçün ona Qara, yəni böyük dəniz deyiblər. Digər mülahizəyə görə isə, Qara dənizin suyunun tərkibində hidrogen-sulfid maddəsinin həddindən artıq çox olması dənizə düşmüş bütün metalların rəngini qaraltdığı üçün o, belə adlandırılıb.

Qara dənizdə suyun yuxarı və aşağı təbəqəsi bir-birinə qarışmır. Dənizin 150 metr dərinliyində isə hidrogen-sulfidin çoxluğu həyatı iflic edir, yəni burada canlıların yaşaması mümkünsüzdür. Qara dənizin sahəsi 422 min kvadratkilometrdir. Dənizin sahilində yerləşən Rusiya, Ukrayna, Bolqarıstan, Türkiyə və Gürcüstan Qara dəniz ölkələri adlandırılır. Mütəxəssislər Qara dənizin suyunun müxtəlif xəstəliklərin müalicəsi üçün yararlı olduğunu deyirlər.

### *Hidrosferin əsasını təşkil edən "dörd"lük*

Hidrosferin 96.5 faizini təşkil edən dünya okeanı 4 yerə bölünür. Bunlar Sakit, Şimal Buzlu, Hind və Atlantik okeanlarıdır. Sahəsi 161.8 milyon kvadratkilometr olan Sakit okean Yer planetinin təxminən 1/3 hissəsini tutur. Okean şərqdən qərbə 19 min kilometr, şimaldan cənuba doğru isə 16 min kilometr məsafədə uzanır.

Avrasiya, Avstraliya, Şimali Amerika, Cənubi Amerika materikləri ilə əhatə olunan Sakit okean Şimal Buzlu okeanı ilə Berinq boğazı, Atlantik okeanı ilə Dreyk boğazı vasitəsilə əlaqələnir. Hind okeanı ilə Sakit okeanın su mübadiləsi Böyük və Kiçik Zond adaları arasındakı dəniz və boğazlar vasitəsilə baş tutur.



Sakit okeanın tədqiqi qədim dövrlərdən başlamışdır. Bu tədqiqatda Fernando Magellanın ilk dünya səyahətinin (1519-1522-ci illər) böyük rolu olub. Okeanda üzdükləri zaman heç bir fırtınaya rast gəlmədiklərinə görə, ona Sakit okean adı verilib. Lakin okean göründüyü qədər sakit deyil. Sakit okeanın öyrənilməsi istiqamətində günümüzə qədər araşdırmalar aparılır, müxtəlif səyyahlar, alimlər onun haqqında yeni məlumatlar öyrənir, flora və faunasını araşdırırlar. Sakit okean ən dərin okean hesab olunur və onun orta dərinliyi 4.028 metr, maksimum dərinliyi isə Marian çökəkliyində 11.022 metrdir. Sakit okean sahillərində quruda çoxlu vulkan var ki, bunlar fəaliyyətdə olan vulkanlardır. Okean dib relyefinin mürəkkəbliyi ilə də seçilir. İri qalxmalar, ayrı-ayrı dağlar və dağ silsilələri okean yatağını çökəkliklərə bölür. Sakit okeanda vaxtaşırı dağəmələgəlmə prosesləri vaxtaşırı vulkan püskürmələri və zəlzələlərlə müşayiət olunur. Zəlzələ zamanı okeanda güclü sunami dalğaları yaranır. Otuzdan çox ölkənin ərazisi Sakit okeanla əhatələnir. Məlumatlara əsasən, dünya əhalisinin təxminən yarısı bu okeanın hövzəsində məskunlaşıb. Dünyada tutulan balığın üçdəbir hissəsini Sakit okean verir. Okeanda güclü dalğalar mütəmadi olaraq müşahidə edilir. Bu dalğaların gücündən enerji mənbəyi kimi istifadə olunması sahəsində ABŞ-da, Yaponiyada tədqiqatlar aparılır.

Şimal yarımkürəsində, əsasən Arktika zonasında yerləşən ən kiçik okean isə Şimal Buzlu okeanıdır. Rusiya, Amerika Birləşmiş Ştatları, Skandinaviya yarımadası ölkələri, Kanada, həmçinin İslandiya və Qrenlandiya adaları vasitəsi ilə digər okeanlardan ayrılır. Sahəsi 13 milyon kvadratkilometrdir. Şimal Buzlu okeanında bir çox adalar var, amma ən əsası dünyanın ən böyük adası olan Qrenlandiyanın bu okeanda yerləşməsidir.

Sahəsinə görə ikinci böyük okean - Atlantik okeanı ona bitişik dənizlərlə birgə 93 milyon kvadratkilometrdir. Ən dərin yeri Puerto-Riko çökəkliyi - 8742 metrdir. "S" hərfi şəklində olan okean Şimal Buzlu okeanından Antarktida qitəsinə qədər uzanır. Adı yunan mifologiyasının qəhrəmanı titan Atlasdan (Atlant) götürülüb. Bəziləri isə okeanın adının yaranmasını əfsanəvi Atlantida adası ilə bağlayırlar. Atlantik adına ilk dəfə yazılı mənbələrdə e.ə. 450-ci ildə Herodotun "Tarix" əsərində rast gəlinib. Atlantik okeanının və onun tərkibinə daxil olan dənizlərin sahillərində 94 ölkə yerləşir.

Atlantik okeanının ta qədim zamanlardan öyrənilməsinə başlanılıb. Bu istiqamətdə ilk elmi məlumatları Xristofor Kolumb, Fernando Magellan, Ceyms Kuk və başqa səyyah və tədqiqatçılar verib. Hazırda okeanın öyrənilməsi istiqamətində müxtəlif alimlər tərəfindən araşdırmalar aparılır. Atlantik okeanının heyvanlar aləmi digər okeanlara nisbətən azlıq təşkil edir. Bu da okeanın nisbətən cavan olması və buzlaşma zamanı onun iqliminin kəskin dərəcədə soyuqlaşması ilə izah olunur. Növlərin azlığına baxmayaraq okean balıq və digər su heyvanları ilə zəngindir.

Yerin təxminən 20 faizini əhatə edən, sahəsinə görə üçüncü yerdə olan Hind okeanı qərbdən Afrika və Ərəbistan yarımadası, şimaldan Asiya, şərqdən isə Hind-Çin yarımadası, Zond adaları və Avstraliya ilə əhatə olunur. Okeanda suyun orta temperaturu 17 dərəcədir ki, bunun səbəbi dalğaların şimaldan gələn küləklərin qarşısını kəsməsidir.

### *Şəffaflığı ilə seçilən dənizlər*

Dünyanın ən şəffaf, təmiz sulu dənizi Antraktidada yerləşən Ueddell dənizi sayılır. Dənizin şəffaflığı 79 metr dərinliyə kimi uzanır. Şəffaf suyun sahəsi 2920 min kvadratmetrdir. Dənizin maksimum



dərinliyi 6 min metrdir. Qeyd edək ki, Ueddell həm də dünyanın ən soyuq dənizidir. Dənizin səthi demək olar ki, bütün il boyu iki metr qalınlığında Antarktika buzlaqları ilə örtülü olur. Burada qış fəslində suyun temperaturu mənfi 2 dərəcəyə çatır.

Təmizliyi ilə seçilən digər dəniz isə Ölü dənizdir. Adı ilə o qədər uyğunluğu olmasa da, dəniz həm təmiz, həm də ən duzlu dənizdir. İordaniya ilə İsrail arasında yerləşən dənizin ümumi sahəsi 810 kvadratmetrdir. Dənizin faunası mövcud deyil, hətta suyunda bakteriyalara belə rast gəlinmir. Yüksək sıxlıq səbəbiylə Ölü dəniz sularında boğulmaq mümkün deyil.

Şəffaf dənizlərdən biri də Sarqas dənizidir. Atlantik okeanında yerləşən dənizin digər unikallığı həm də sahilinin olmamasıdır. Sarqas dənizi okean ilə sualtı tirələr vasitəsilə ayrılmasına görə fərqlənir. Ərazisinin böyük hissəsini qonur rəngli yosunlar örtüb. Dənizin suyu əsasən isti olur, hətta qış mövsümündə suyun temperaturu 26 dərəcədən aşağı düşmür. Sarqas dənizinin maksimum dərinliyi 7 min metr təşkil edir. Dəniz 1492-ci ildə Xristofor Kolumb tərəfindən kəşf edilib, dənizə "Böyük üzümlər yığımı" mənasını verən "Sarqas" adı verilib.

### *Təhlükəli çimərliklər*

Yay aylarında asudə vaxt keçirməyimiz üçün çimərliklər ən ideal seçim olsa da, bütün çimərliklərin rahatlığı eyni deyildir. Hətta bəzi ölkələrdə də çimərliklər təhlükəli olması ilə yadda qalır. Bununla belə həmin plyajlara gedənlər də az deyil.

Məsələn, İngiltərədə yerləşən "Burton Bradstock" çimərliyi sahilə paralel olan qayalıqlarla müşayiət olunur. Onlarca nəhəng qaya parçası sahilə düşür. İndiyə qədər bir çox insan bu çimərlikdə dünyasını dəyişib.

Digər təhlükəli çimərliklərdən hesab olunan Cənubi Afrikada yerləşən Qansbaydır. Dənizdə yaşayan yüzlərlə köpək balığı insanların dənizdə üzməsinə maneə yaradır. Köpək balıqlarının çoxalmasının əsas səbəbi isə burada 60 mindən çox suitinin olmasıdır.

Mərcan adası gözəlliyi ilə insanları valeh etsə də, dünyada ən təhlükəli çimərliklər qrupuna aiddir. Belə ki, UNESCO tərəfindən qorunan bu çimərliyin sahili ABŞ-ın 1946-1948-ci illərdə nüvə silahı sınaqlarını keçirdiyi ərazi olub. Bu səbəbdən ərazi radiasiya şüaları ilə çirklənib. Eyni zamanda dəniz sahillərində köpək balıqları çoxdur.

Braziliyada yerləşən Amazon sahillərində istirahət də insanların həyatı bahasına başa gəlir. Dəniz canlısı olan elektrikli ilanlar insanları çalaraq, onların ölümünə səbəb olur.

Digər təhlükəli çimərliklərdən biri "Kilauea" isə vulkan dağının kənarında yerləşir. Vulkan hər püskürdükdə lava dəniz sularına axır, bu isə insanların həyatı üçün təhlükə yaradır.

Avstraliyada yeləşən Freyzer (Fraser) adası sahilləri də təhlükəlidir, çünki dənizdə yüzlərlə köpək balığı və zəhərli meduzalar insanların həyatı üçün təhlükə yaradır.

Hindistanda Mumbayda yerləşən Covpatti çimərliyi də təhlükəli yerlərdən biridir. Digər çimərliklərdən fərqli olaraq, buranın təhlükəli olmasının səbəbi çirkliliyidir.

Meksikada yerləşən "Playa Zipolite" çimərliyi isə ən çox boğulma hadisəsinin baş verdiyi yer olaraq təhlükəli hesab edilir. "Zipolit" sözü Nahuatl dilində "ölüm çimərliyi" mənasını verir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Sağlıq olsun

# Dənizin səfası

**Çimərlik mövsümünün ən qaynar vaxtlarıdır və yayın qızmarından can qurtarmaq istəyənlər üz tutur dənizə. Amma dənizdə çimmək təkcə sərinləmək üçün deyil, həm də insan orqanizminə inanılmaz dərəcədə fayda verir. Ümumiyyətlə, dəryaların gözoxşayan mavi mənzərəsinə dalmağın, suyun səsinə qulaq asmağın, sahilə tərəf əsən rüzgarın gətirdiyi dənizin özünəməxsus qoxusunu ciyərlərə çəkməyin özü belə başdan-başa terapiyadır... Həm də dənizin faydaları təkcə bunlarla bitmir...**



Tarix boyu həkimlər dənizdə üzməyin saysız-hesabsız xəstəliklər üçün faydalı olduğunu bildiriblər. Hətta tibbin atası Hippokrat balıqçıların əllərinin kəsilməsinə rəğmən infeksiyaya yoluxmamalarının səbəbini dəniz suyunun təsiri ilə izah edib.

### ***"Ağ qan"a oxşar su***

Fransalı bioloq Rene Kenton sübut edib ki, dəniz suyu tərkibinə görə qanın plazmasına (qanın ağ hissəsi) oxşayır. Dərinin məsamələrindən orqanizmə daxil olan dəniz suyu hüceyrələrin yenilənməsi proseslərini sürətləndirir, orqanizmi vacib minerallarla (kalium, kalsium,yod, kükürd, brom və s.) zənginləşdirir.

Yodlu havanın beyin və bədənin cavanlaşmasına müsbət təsir etdiyini deyən türkiyəli rekonstruktiv cərrahiyyə mütəxəssisi Bülənt Cihantimur isə bildirir ki, beyin dalğaları suyun səsini eşitdiyi zaman ürək ritmində də sakitləşmə yaranır: "Bədənimiz bu şəkildə daha çox oksigen tələb edir və dərindən nəfəs almağa ehtiyac duyuruq. Dənizin yodlu havası beyinin və bədənin eyni anda gəncləşməsinə fayda verir. Dəniz kənarında yüksəkkeyfiyyətli yuxualmanın təməlində də təmiz hava dayanır".

Mütəxəssis onu da bildirir ki, oksigen udmağımızı sürətləndirən mənfi ionlarla yüklənmiş dəniz havası serotonin ifrazını artıraraq streslə mübarizə aparır, yəni insanın özünü xoşbəxt hiss etməsinə səbəb olur. Bədəni enerji ilə doldurur. Eyni zamanda dəniz havası Günəş işığı ilə birlikdə xroniki dəri xəstəliklərində də müalicəvi təsir göstərir.

### ***Allergiyaya son***

Araşdırmalara görə, tərkibində 90-a yaxın faydalı maddə olan dəniz suyu mineral duzlarla, amin turşuları ilə, vitaminlərlə və qan dövranı sisteminin komponentləri ilə zəngindir. Dəniz suyunun tərkibindəki yod immunitet sistemini gücləndirir. İçərisindəki vitamin və mineralların sorulması dəridəki məsamələri açır və orqanizmin xəstəliklərə tutulmasına səbəb olan toksinlərin atılmasını təmin edir. Bu həm də allergik xəstəliklərin müalicəsində mühüm üsullardan biridir. Antiseptik olan dəniz suyu infeksiyalara qarşı mübarizə aparır, orqanizmin göbələk, bakteriya və mikrobları öldürmək üçün müqavimətini artırır, səpkilərin azalmasına kömək edir.

Eyni zamanda bu su bronxit, haymorit, xroniki rinit kimi nəfəsalma sistemi xəstəliklərinin, psoriaz, ekzema, neyrodermit, xroniki dermatoz kimi dəri xəstəliklərinin sağalmasına yardımçı olur.

Yod və bromla zəngin olan dəniz suyu sinir sistemi xəstəlikləri üçün əsl müalicə hesab olunur. Tərkibindəki maqnezium, brom və litium maddələri narahatlıq və depressiya kimi müxtəlif psixi pozğunluqları müalicə edir. Bu maddələr beyindəki melatonin və serotonin səviyyələrini tarazlaşdırır.

### ***Dənizdə üzmək ağciyərin tutumunu artırır***

Kalsiumla zəngin olduğu üçün oynaq və sümükləri möhkəmləndirən dəniz suyu həm də iltihabları və ödemləri azaldır, qan dövranını yaxşılaşdırır. Ürək-damar sistemi xəstəliklərinin də şəfası sayılan su qan dövranını yaxşılaşdırır, damarları və ürəyi yaxşı məşq etdirir. Həmçinin kaliumla zəngin olduğundan ürək əzələsini möhkəmləndirir.

Dəniz suyu mübadilə proseslərini sürətləndirir, arıqlamağa kömək edir. Duzlu su kəpəyin qarşısını alır və saçlara parlaqlıq verir.

Dənizdə üzmək ağciyərin tutumunu artıran ən vacib fiziki müalicə üsullarından biridir. Harvard Tibb Məktəbi isə bildirir ki, çimərlikdə keçirilən bir günün ən böyük faydası bədənimizdə D vitaminini toplamaqdır.

Həmçinin çimərlik insana rahat yuxu da bəxş edir. Belə ki, dəniz suyundakı maqnezium əzələləri və sinirləri sakitləşdirərək stressi azaltmağa kömək edir ki, bu da rahat yuxuya stimul verir.



## Bu qaydalara riayət etmək vacibdir

- 11:00-dan17:00-a qədər dənizə girməyin.
- Suda 10-15 dəqiqə vaxt keçirmək kifayətdir.
- Hava çox istidirsə, suya tədricən girmək lazımdır. Əks halda damarlar ani sıxıla bilər ki, bu da ürəktutması və hətta infarkta səbəb ola bilər.
- Sudan çıxandan dərhal sonra nəm paltarınızı dəyişin. Uzun müddət ərzində nəm paltarda qalmaq böyrək xəstəlikləri riskini artırır.
- Sudan çıxanda 15 dəqiqə gözləyin (duz və faydalı mineralların təsirini artırmaq üçün) və sonra mütləq duş qəbul edin. Dəniz suyu dərini qurudur ki, bu da günəş yanıqları riskini artırır. Həmçinin dərinin quruması onu qocaldır.
- Suyun temperaturu artdıqca onun faydası da azalır və suda olan mikrobların sayı artır. Bu səbəbdən temperaturu 24-25 selsiyə qədər olan suda çimmək daha faydalı sayılır.

## Qızılı qumun faydası

**Dəniz suyu ilə yanaşı, dəniz qumunun da insan orqanizmi üçün çox faydası var.**



İsti qumla müalicə psammoterapiya adlanır. Vaxtilə qədim Misir, Yunanıstan və Romada istifadə edilən bu müalicə üsulu haqqında Qalen, Herodot və İbn Sina yazıblar. Qumun bəzi fiziki-kimyəvi xüsusiyyətləri onu müalicəvi vasitəyə çevirir. Günəş şüaları və ya süni qızdırıcılar vasitəsilə qızdırılan qum istiliyi asanlıqla mənimsəyir və onu yavaş-yavaş ətraf mühitə qaytarır. Qumun üzərində uzananda dərialtı toxumaların, oynaq və əzələlərin hərarəti yüksəlir, mübadilə prosesləri və şlakların bədəndən xaric olması sürətlənir. Qum çox hidroskopik olduğuna görə, bədəndən xaric olan təri udur və orqanizmi istivurmadan qoruyur.

Mütəxəssislər revmatizm xəstələrinin müalicəsi üçün isti qum vannasını tövsiyə edir. Dənizdə olan bütün duzları, mineralları və vitaminləri özündə ehtiva edən bu qum oynaq ağrılarının təbii müalicəsi kimi istifadə olunur. Tərkibi D vitamini ilə zəngindir.

Yaş dəniz qumu üzərində bir saatlıq gəzinti gün ərzində qəbul edilən qidaların səbəb olduğu damarların tıxanmasının qarşısını alaraq qan dövranını tənzimləyir. Ürək xəstəlikləri riskini, eləcə də psixoloji pozğunluqları azaldır.

Qumun tərkibindəki minerallar dəri səthində zədələnmiş hüceyrələri yeniləyir, dəriyə parlaqlıq və hamarlıq verir. Antibakterial təsirə malik dəniz qumu dəridə qocalmağa səbəb olan hüceyrələrin sayını azaldır, onun elastikliyini artırır.

## Şəfalı hava

**Dəniz suyunda olan bütün şəfalı xüsusiyyətlərə dəniz havasında da rast gəlinir. Ən əhəmiyyətlisi, dəniz havasındakı antioksidantlar xərçəngin yaranmasının qarşısını alır.**



Faydalı minerallarla zəngin havanın tərkibində oksigen və ozon çox, mikroblar, toz və sair ziyanlı maddələr isə yox dərəcəsindədir.

Dəniz havası tənəffüs sistemi xəstəliklərindən əziyyət çəkən insanlara xüsusilə faydalıdır. Bu hava nəfəs yollarını təmizləyir və yumşaldır. İmmun sistemini möhkəmləndirir, allergiyalara qarşı müalicəvi təsir göstərir.

Yodla zəngin olan dəniz havası zob xəstəliklərindən əziyyət çəkən insanlara müalicəvi təsir edir. Dəniz havası maddələr mübadiləsi proseslərinə müsbət təsir edir, qan dövranını yaxşılaşdırır, bütün orqan və sistemləri oksigenlə zənginləşdirir.

Dəniz havası ürək xəstəliklərindən və yüksək təzyiqdən əziyyət çəkən insanlara müsbət təsir edir, tərkibindəki faydalı maddələr sayəsində dərinin canlılığını, gəncliyini və gözəlliyini də qoruyur.

Dəniz havası depressiyadan, xroniki stresdən və digər sinir sistemi xəstəliklərindən əziyyət çəkən insanlar üçün çox faydalıdır. Brom və litium maddələri beyində serotonin, melatonin və triptamin kimi xoşbəxtlik hormonlarının səviyyəsini artırır. Bu maddələr dəniz suyunda, həmçinin dəniz havasında yüksək miqdarda olur və buna görə də psixoloqlar stresdən əlavə, əsəb pozğunluğu olan xəstələrinə 2 saat dəniz kənarında gəzməyi və ya istirahət etməyi tövsiyə edirlər.

Qəribədir ki, fırtına zamanı dəniz havasının daha faydalı olduğu bildirilir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Maestro Niyazinin məzarı ziyarət edilib



Görkəmli dirijor və dünyaşöhrətli bəstəkar, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı Niyazi Tağızadə-Hacıbəyovun anadan olmasının 110-cu ildönümü münasibətilə sənətkarın məzarı ziyarət olunub.

AZƏRTAC xəbər verir ki, Mədəniyyət Nazirliyinin nümayəndələri, ictimai xadimlər, Azərbaycan Dövlət Musiqi Mədəniyyəti Muzeyinin əməkdaşları, tanınmış mədəniyyət xadimləri, bəstəkarlar Fəxri xiyabana gələrək maestronun məzarı önünə gül dəstələri düzüblər.

Anım mərasimində çıxış edən Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli maestronun həyat və yaradıcılığından danışıb: "Maestro Niyazi dahi dirijor, dahi bəstəkar, çox tanınmış ictimai xadim idi. Təbii ki, Üzeyir bəyin ailəsində dünyaya gəlmək və musiqiçi olmamaq mümkün deyil. O, xalqa, millətə çox yaxın və sadə insan olub. Dirijor kimi London, Paris, Praqa, Moskva, Budapeşt və başqa şəhərlərdə dövrünün nüfuzlu orkestrlərinə rəhbərlik edib. XX əsrin çox görkəmli şəxsləri Niyazinin evində qonaq olublar. Onun dünyaya gəldiyi gün (20 avqust) bizim üçün çox mühüm tarixdir. O, müxtəlif vaxtlarda ən yüksək fəxri adlara, mükafatlara layiq görülüb, bir çox orden və medallarla təltif olunub, Tbilisinin fəxri vətəndaşı seçilib. Bu gün Niyazinin adı dünyaşöhrətli dirijorlarla, bəstəkarlarla qoşa çəkilir. Qoy, bütün yeni nəsil bilsin ki, bizim tariximizdə nə qədər böyük insanlar var".

Anım günündə görkəmli sənətkarın Azərbaycanın musiqi mədəniyyətinin inkişafındakı xidmətləri vurğulanıb.

Bildirilib ki, Niyazi Azərbaycan xalqının milli sərvətidir və onun adı hər zaman böyük ehtiramla anılır. O, nəinki Azərbaycanın, eyni zamanda bütün türk dünyasının musiqi mədəniyyətinin inkişafında xidmətləri olan şəxsiyyətdir.

Diqqətə çatdırılıb ki, maestronun Azərbaycan Opera və Balet Teatrının səhnəsində hazırladığı Müslüm Maqomayevin "Nərgiz", Qara Qarayevin "Vətən", Fikrət Əmirovun "Sevil" operaları, eləcə də Qara Qarayevin "Yeddi gözəl" və "İldırımlı yollarla" baletləri böyük uğur qazanıb. 1961-ci ildə Leninqrad Opera və Balet Teatrında Arif Məlikovun "Məhəbbət əfsanəsi" baletinin ilk tamaşasını hazırlayan maestro həmçinin Ankara Opera və Balet Teatrında Pyotr Çaykovskinin "Qaratoxmaq qadın", Cüzeppe Verdinin "Aida" operalarına, İstanbul Opera və Balet Teatrında türk bəstəkarı Ə.Sayqunun "Koroğlu" operasının ilk tamaşasına və "Yunis Əmrə" oratoriyasına dirijorluq edib.

Qeyd edilib ki, onun yaradıcılığı əsl örnəkdir. Hələ neçə-neçə nəsillər Niyazi məktəbindən bəhrələnəcək.





OXUCULARIN NƏZƏRİNƏ!

*"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*


# Ermənistanın mina terroru

## Azərbaycanın humanist davranışından istifadə edən ermənilər əsl xislətlərini bir daha nümayiş etdirirlər, beynəlxalq təşkilatlar isə buna göz yumurlar

Vətən müharibəsindəki böyük Zəfərdən sonra işğaldan azad edilən ərazilərimizin abadlaşdırılması, yenidən həmin ərazilərdə yaşayışın təmin edilməsi üçün ilk gündən bərpa-quruculuq işləri tam sürətlə davam etdirilir. Fəqət torpaqlarımıza qovuşsaq da, iki ilə yaxındır ki, əsl erməni xisləti ilə üz-üzəyik.




Müharibə qurtardıqdan sonra haqqımız olan torpaqlarımızdan çıxmaları üçün məğlub ölkənin vətəndaşlarına vaxt verilmişdi. Bu humanizmin qarşılığında isə ermənilər ərazilərə mina basdırır və evləri yandırırdılar. Getdikləri zaman geridə özlərinə layiq qoyduqları "izlər" ağır fəsadlar törədirdi. Minaların partlaması nəticəsində xeyli sayda insan həyatını itirdi və şikəst oldu. Əsl erməni xisləti özünü bir daha göstərdi. Bu gün də Laçın şəhərində və digər kəndlərdə qeyri-qanuni məskunlaşan ermənilər evləri yandırıb və əraziləri minalayıb çıxırlar.

### Mina terroru nəticəsində 226 nəfər zərər çəkib

İşğaldan azad olunmuş ərazilərimizin minalanması səbəbi ilə müharibədən sonra itkilərin verilməsi hələ də davam edir. Belə ki, 10 noyabr Bəyanatından sonra ermənilərin mina terroru nəticəsində indiyədək 102 mülki vətəndaş minaya düşüb, onlardan 32 nəfər həlak olub. Eyni zamanda 124 hərbçi minaya düşüb, onlardan 7-si həyatını itirib, 117-si isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

1999-cu ildən beynəlxalq hüquqi qüvvəyə malik Ottava Konvensiyası piyada əleyhinə minaların istifadə edilməsini, istehsalını, yığılmasını və ötürülməsini qadağan edir. Həmçinin konvensiyaya görə, əraziləri minalamış tərəf müharibə bitdikdən sonra dəqiq hazırlanmış mina xəritəsini qarşı tərəfə verməyə borcludur. Vətən müharibəsindən sonra mina xəritələrinin verilməsi beynəlxalq platformalarda dəfələrlə müzakirə olunsa da, Ermənistan buna məhəl qoymurdu. Bir çox təzyiqlərdən sonra məğlub ölkə mina xəritələrini ölkəmizə təqdim etdi. Lakin araşdırmalar nəticəsində məlum oldu ki, verilən xəritələr tam olmamaqla yanaşı, dəqiqliyi cəmi 25 faiz təşkil edir.

Təkcə avqust ayı ərzində Füzulidə minatəmizləmə işləri ilə məşğul olan şirkətin 3 əməkdaşı piyada əleyhinə minaya düşüb. Onlardan ikisi - Yadigar Şükürov və Rövşən Əlizadə müxtəlif dərəcəli bədən xəsarətləri alıb, Qılman Hüseynovun isə sağ ayağı amputasiya olunub. Daha sonra Kəlbəcər rayonunda ermənilər tərəfindən basdırılmış minanın partlaması nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu Babək Əliyev şəhid olub. Hadisə yerinə baxış keçirildikdən sonra məhkəmə-tibb ekspertizası təyin edilib, faktla bağlı Kəlbəcər Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb.

### Laçında aşkarlanan 991 ədəd mina 2021-ci ildə istehsal edilib

Qeyd edilənlərdən bəlli olur ki, sadalanan halların sayı getdikcə artır, təhlükə səngimir. Ermənilər Birinci Qarabağ müharibəsindən sonra minaları basdırmağa başlayıblar. 30 ilə yaxın müddətdə sayı-hesabı bəlli olmayan bu minaların hazırda yaratdığı təhlükələrlə isə Azərbaycanın bir çox dövlət qurumları birgə mübarizə aparırlar.

Son olaraq verilən məlumatlarda bildirilir ki, avqustun 15-də Laçın rayonunun şərq hissəsində, Sarıbaba yüksəkliyinin şimal-qərb istiqamətində qanunsuz erməni silahlı dəstələrinin basdırdığı piyada əleyhinə mina sahəsi aşkar edilib. Azərbaycan Ordusunun Mühəndis Qoşunlarının bölmələri tərəfindən ərazinin kəşfi aparılıb. Aşkar edilmiş minalar xüsusi hazırlıq keçmiş istehkam qrupu tərəfindən zərərsizləşdirilib. Minalanmış sahədən ümumilikdə 991 ədəd PMN-E növlü piyada əleyhinə mina çıxarılaraq daşınıb və təhlükəsizlik qaydalarına riayət olunmaqla utilizasiya edilib. O da xüsusilə nəzərə çatdırılır ki, bu istiqamətdə aşkar edilən minaların hamısı Vətən müharibəsindən sonra - 2021-ci ildə Ermənistanda istehsal olunub.

Ötən həftə ərzində isə 685 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən işğaldan azad edilmiş ərazilərdə - Tərtər, Ağdam, Şuşa, Xocavənd, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarında aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 134, tank əleyhinə 193 mina və 39 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

### Yenə də ikili standartlar...

Azərbaycan dövləti Qarabağ və Şərqi Zəngəzurda qeyri-qanuni məskunlaşan ermənilərin ərazilərimizi təhlükəsiz şəkildə tərk etmələri üçün humanist davranış sərgiləyək onlara növbəti dəfə vaxt vermişdi. Ancaq yenə də ermənilər xain əməllərindən əl çəkməyərək bu vaxtı əraziləri minalamağa sərf etməklə yanaşı, bütün bu humanist davranışların cavabı olaraq isə meşələri yandırır, evləri, infrastruktur obyektləri dağıdır, flora və faunaya ciddi ziyan vururlar.

Xüsusilə son vaxtlar Laçın və ətraf ərazilərdə baş verənlər bir daha onu göstərir ki, ermənilər öz nifrətindən əl çəkmir, vəhşiliklərini müxtəlif yollarla ifadə edirlər. Təəssüf ki, Ermənistan tərəfinin həyata keçirdiyi mina terroruna, vandallığa hələ də beynəlxalq arenadan heç bir reaksiya göstərilmir. Bütün bu əməllərin qarşısında dünyanın aparıcı dövlətləri, beynəlxalq təşkilatları səssiz qalır, susqunluq sərgiləyirlər. Mövzu ilə bağlı dəfələrlə hökumət və qeyri-hökumət təşkilatları tərəfindən müraciətlər edilsə də, heç bir nəticə əldə olunmayıb. Söhbət insan talelərindən getsə də, sanki dünya Ermənistanın xainlikləri qarşısında kordur.

Ancaq bir məqam unudulmamalıdır ki, ermənilər hər nə qədər öz barbarlıqlarını nümayiş etdirsələr də, Azərbaycan da bir o qədər onlara həqiqi gücünü, qüdrətini göstərir. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi quruculuq işləri ilə gözdağı verir. 30 il ərzində daşı-daş üstünə qoya bilməyən erməniyə isə bir ilin içində Zəngilanın Ağalı kəndində salınan "ağıllı kənd" layihəsi əsl cavab oldu.

***Aydan XƏLİLOVA, "Azərbaycan"***

# Ermənistanda işsizlik böhranı yaşanır

## Xarici ianə və yardımların kəsiləcəyi təqdirdə ölkənin daha böyük səfalətə sürüklənəcəyi şəksizdir

*Əvvəli 1-ci səh.*

Özü də bank faizləri kifayət qədər yüksəkdir. Bu ilin son 7 ayının nəticələrinə görə, Ermənistanda makroiqtisadi, eyni zamanda sosial göstəricilərdə kəskin enişlər var. Ermənistanın rəsmi statistikasına görə, bu gün ölkədə hər 5 nəfərdən biri yoxsulluq həddində yaşayır. Beynəlxalq qurumların hesabatlarına görə isə bu göstərici hər 3 nəfərdən birinə aiddir. Sözügedən ölkənin rəsmi statistikasında hər 5 nəfərdən biri işsizdir. Beynəlxalq hesabatlarda bu rəqəm 25 faizə yaxındır. Praktik olaraq Ermənistanın həm rəsmi statistikası, həm də beynəlxalq hesabatlar ölkənin sosial və iqtisadi vəziyyətinin kifayət qədər acınacaqlı olduğunu göstərir.

Bütün bunların fonunda Ermənistanda anti-Rusiya ab-havası artmaqdadır. Erməni saytları bu ölkənin əleyhinə silsilə yazılar dərc edir, siyasətçilər, ziyalılar isə tez-tez Rusiya əleyhinə açıqlamalar verirlər. Məsələn, erməni ictimai xadim Arman Vardanyan iddia edib ki, artıq bir çox əcnəbi banklar İrəvanın müttəfiqinə görə Ermənistanla maliyyə əməliyyatlarından və ümumilikdə əməkdaşlıqlardan yayınmağa başlayıblar: "Bəzi məlumatlara görə, xarici banklar, maliyyə mərkəzlərinin əksəriyyəti Ermənistanda sövdələşmə əməliyyatlarından imtina ediblər. Sövdələşmələri davam etdirən yalnız 2-3 bank var. Səbəb ölkəmizdə olan Rusiya kapitalının dövriyyəsidir. Bununla əlaqədar ölkəmizə müəyyən məhdudiyyətlər qoyulub. Əgər daha konkret məlumatınız varsa, bizimlə paylaşın".

Bütün sahələrdə iflasa uğrayan Ermənistanda işsizlik böhranı da yaşanır. Ölkədə təkcə gənclərin 42 faizi işsizdir. Qeyd olunur ki, ölkədə həkimlər, tibb bacıları, mühəndislər, müəllimlər, digər peşə və sənət adamları arasında işsizlik hallarına daha çox rast gəlinir. Bu arada daha bir maraqlı məqam işsizlərin arasında qadınların sayının getdikcə artmasıdır. Hesab edilir ki, Ermənistanda işsizlər arasında kişilərin azlıq təşkil etməsi təəccüb doğurmamalıdır. Çünki kişilərin əksəriyyəti öz ailəsini dolandırmaq məqsədilə ölkəni tərk edərək Rusiyaya və digər ölkələrə üz tutub. Xarici ölkələrə gedənlərin sayı bir milyonu ötüb. Belə halda artıq iflic vəziyyətində olan Ermənistan iqtisadiyyatının rəqabətə davamlılıq reytinqi aşağı düşməkdədir. Elə ötən ildə də ölkə iqtisadiyyatının rəqabət imkanları nəzərəçarpacaq dərəcədə zəifləyib. Buna səbəb dövlət rəsmilərinin korrupsiyaya qurşanması, qanunun aliliyi ilə bağlı problemlərin həllini tapmaması və biznes üçün bərabər şəraitin yaradılmamasıdır. Məhkəmə sisteminin müstəqilliyi yarıtmaz vəziyyətdədir, vergilərin toplanmasında korrupsiya halları geniş vüsət alıb, hökumət iqtisadi inhisarçılığa qarşı mübarizə aparmaqda acizdir.

Hər zaman olduğu kimi, Ermənistan xaricdən asılı vəziyyətdədir. Xarici ianə və yardımların kəsiləcəyi təqdirdə Ermənistanın daha böyük səfalətə sürüklənəcəyi şəksizdir. Əhalinin getdikcə dərinləşən sosial problemləri, işsizlik, xarici sərmayənin az olması, istehsalın yoxluğu vəziyyəti daha da ağırlaşdırır.

Onu da bildirək ki, Ermənistanın ixrac edə biləcəyi məhsul çeşidi böyük deyil və daha çox metal filizi, kənd təsərrüfatı məhsulları və spirtli içkilərlə məhdudlaşır ki, bununla da büdcəni doldurmaq mümkün deyil.

Bütün bunlar bir daha Ermənistanda gərgin vəziyyətin davam edəcəyini aydın şəkildə göstərir.

***Elçin CƏFƏROV, "Azərbaycan"***







# Paytaxtda 38, bəzi yerlərdə isə 40 dərəcə isti olacaq

Azərbaycanda avqustun 21-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək. Mülayim cənub-şərq küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 22-26°, gündüz 35-38° isti, Bakıda gecə 23-25°, gündüz 36-38° isti olacaq.

Atmosfer təzyiqi 760 millimetr civə sütunu, nisbi rütubət gecə 55-60, gündüz 30-35 faiz təşkil edəcək.

Abşeron çimərliklərində mülayim cənub-şərq küləyi əsəcək.

Dəniz suyunun temperaturu şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 27-28°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda 28-29° isti olacaq.



Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 19-24°, gündüz 35-40° isti, dağlarda gecə 15-20°, gündüz 24-29° isti olacağı gözlənilir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6355
Sifariş 2282
Qiymәti 40 qəpik